RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 60 (8376) ÇƏRŞƏNBƏ, 18 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Müstəqillik və tərəqqi yolu ilə irəli

**Son aylarda Azərbaycan cəmiyyətində ən çox müzakirə olunan mövzu - Milli Məclisə VI çağırış növbədənkənar seçkilərin keçirilməsi söhbətləri artıq arxada qalmışdır. Buna birinci səbəb Azərbaycan Respublikasının müstəqillik tarixində ən çox namizədin iştirak etdiyi deputat seçkilərinin uğurla başa çatmasıdır. Azərbaycan beynəlxalq ictimaiyyətin gözü qarşısında ölkəmizdə çoxpartiyalı əsaslarla azad və demokratik seçkilərin keçirilməsinə nail olmuşdur.**

Azərbaycan Respublikası Milli Məclisinin VI çağırış üzrə birinci iclasının keçirilməsi, bu mühüm tarixi əhəmiyyətə malik olan iclasda ölkəmizin Prezidenti İlham Əliyevin proqram xarakterli nitqi və qəbul edilən qərarlar növbədənkənar seçkilərin səbəbləri və nəticələri haqqında tam və əsaslı qənaətlərin formalaşmasını müəyyən etmişdir.

İlk növbədə onu qeyd etməyi lazım bilirəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisin VI çağırış birinci iclasındakı dərin məzmunlu nitqi ölkəmizin parlamentarizm tarixində siyasi sistemin islahatlarının proqramını müəyyən edən bəyanat kimi daxil olmuşdur. Bu tarixi nitq Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş növbədənkənar seçkilərin fonunda ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsi və daha da inkişaf etdirilməsi istiqamətində islahatların aparılmasının siyasi-ideoloji əsaslarından ibarət olan konseptual bir proqramdır.

Burada müstəqil Azərbaycan dövlətinin bütün sahələr üzrə daha da inkişaf etdirilməsinin, təkmilləşdirilib yeniləşdirilməsinin siyasi əsasları öz əksini tapmışdır.

Milli Məclisdəki tarixi nitqi bir daha sübut etmişdir ki, Prezident İlham Əliyev daim yeniləşən və inkişaf edən Azərbaycanın daha böyük hədəflərə çatması üçün ölkəmizdə islahatlardan-islahatlara ardıcıl olaraq həyata keçirilməsi zəruri olan vəzifələri, ictimai-siyasi proseslərdəki növbəti addımları qabaqcadan aydın şəkildə görür, ölkəni və xalqı inandırıcı şəkildə daha böyük inkişafa aparan yollara doğru bacarıqla səfərbər edir.

Fikrimcə, bu mənada dövlət müstəqilliyinin hazırkı mərhələsində siyasi sistemin təkmilləşdirilməsi üzrə həyata keçirilmiş islahatların daha da dərinləşdirilməsinin və əhatə dairəsinin genişləndirilməsi işinin başa çatdırılması zərurətinin əsaslandırılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdəki nitqinin siyasi-nəzəri konsepsiyasını təşkil edir. Və həm də məsələnin bu cəhətinin, yəni ölkədə inkişafın yeni mərhələsində siyasi sistemin təkmilləşdirilməsi zərurətinin meydana qoyulması və başa çatdırılması növbədənkənar seçkilərin keçirilməsinin səbəblərinin aydınlaşdırılmasına xidmət edir.

Bu baxımdan ölkəmizdə ilk növbədə çoxpartiyalı demokratik cəmiyyət quruculuğunu daha da inkişaf etdirmək üçün partiyalararası münasibətləri tənzimləmək, iqtidar-müxalifət münasibətlərində siyasi dialoqa nail olmaq həlli vacib vəzifələrdən biri kimi meydana çıxmışdır. Parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının Milli Məclisə seçkilərdə azsaylı deputatlarla təmsil olunan siyasi partiyalarla əməkdaşlıq naminə atdığı addım nəticə etibarilə cəmiyyətdə siyasi dialoqdan, qarşılıqlı anlaşmanın və sabitliyin təmin edilməsində mühüm faktorlardan biri olmuşdur.

Möhtərəm Prezident İlham Əliyevin nitqində səsləndirilmiş aşağıdakı fikirlər Azərbaycan cəmiyyətinin müasir inkişafından doğan bu reallığı çox dolğun şəkildə ifadə edir: *"Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bizim partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır. ...Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq".*

*Ardı 4-cü səh.*

## Mehriban ƏLİYEVA: "Vaqif Mustafazadənin adı və yaradıcılığı yaşayır və daim yaşayacaqdır"



"Vaqif Mustafazadə... Bu ad hər birimizdə ən xoş duyğular oyadır. Qısa, lakin mənalı ömür yaşadı. O, dərin köklərə malik qədim Azərbaycan muğamı ilə caz musiqisini uğurlu sintez edərək dünya musiqi inciləri xəzinəsinə caz-muğamın təkrarolunmaz nümunələrini bəxş etdi. Qəlbləri titrədən gözəl melodiyaları və ritmləri milli musiqi irsimizi daha da zənginləşdirdi və bütün dünyada tanıtdı".

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın "Instagram" səhifəsində yer alıb.

Mehriban Əliyeva bildirib ki, 80 illiyi qeyd olunan Vaqif Mustafazadənin adı və yaradıcılığı yaşayır və daim yaşayacaqdır.

"Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi Vaqif Mustafazadənin xatirəsinə ehtiram əlaməti olaraq Heydər Əliyev Fondu tərəfindən 2012-ci ildə bəstəkarın həyat və yaradıcılığından bəhs edən musiqi albomu nəşr edilmiş, yaxın zamanlarda isə əsaslı yenidənqurma işləri aparılan Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq incəsənət məktəbi istifadəyə veriləcəkdir".

### Milli Məclisin iclasında

## Parlamentdə koronavirus müzakirələri

### Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarının pozulmasına görə məsuliyyət sərtləşdirilir

Milli Məclisin martın 17-də keçirilən iclasında respublikamızda koronavirusla mübarizə ilə əlaqədar olaraq qanunvericiliyə nəzərdə tutulan dəyişikliklər müzakirə edildi.



### Parlamentin komitə və komissiyalarının iclasları təxirə salınır

Parlamentin Sədri Sahibə Qafarova qeyd etdi ki, iclasda koronavirusla mübarizə ilə əlaqədar məsələlər müzakirə olunacaq. Azərbaycanda bu sahədə görülən işlərin Dünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirildiyini deyən Sahibə Qafarova bildirdi ki, Baş Nazir Əli Əsədov mərkəzi və yerli icra hakimiyyəti orqanlarına və dövlət qurumlarının rəhbərlərinə təlimat məktubu göndərib: "Məktubda koronavirus infeksiyası ilə bağlı mübarizənin təşkili istiqamətində bir sıra tələblər müəyyən edilib. Bu tələblərdən biri iclasların, müşavirələrin və toplantıların keçirilməsinin məhdudlaşdırılması, idarəetmənin telefon, mobil rabitə və internet vasitəsilə həyata keçirilməsinə üstünlük verilməsi haqqındadır. Bununla əlaqədar olaraq parlamentdə də komitə və komissiyaların iclaslarının keçirilməsini dayandırmaq lazımdır".

### Cinayət Məcəlləsinə yeni maddə əlavə olunur

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. İlk olaraq Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri barədə məlumat verdi. Bildirdi ki, İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması məsələlərini əhatə edir. Bu məcəlləyə təklif olunan dəyişikliyə əsasən də epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarının pozulmasına görə inzibati məsuliyyət daha da sərtləşdirilir.

Cinayət Məcəlləsinə təklif olunan dəyişikliyə görə isə məcəlləyə yeni - 139-1-ci maddənin əlavə edilməsi təklif olunur. Bu maddəyə əsasən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin qaydalarının pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətdə azadlığın məhdudlaşdırılması və ya üç ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılmaq nəzərdə tutulur.

Eyni əməllər insan ölümünə və digər ağır nəticələrə səbəb olduqda üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılmaq qərara alınır.

*Ardı 3-cü səh.*

## Əhalinin sosial müdafiəsinin gücləndirilməsi prioritet vəzifə olaraq qalır

### Prezident İlham ƏLİYEV: "Vətəndaşlarımızın sosial vəziyyəti ildən-ilə daha da yaxşılaşdırılacaq"

**Ölkəmizdə aparılan islahatların iqtisadi inkişafla yanaşı, əhalinin sosial müdafiəsinə də xidmət etməsi davam edir. Dövlətin sosial sahəyə diqqəti sayəsində vaxtaşırı pensiya, təqaüd, müavinət və əməkhaqları artırılır, şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsini təmin etmək üçün mütəmadi tədbirlər görülür.**

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev martın 16-da Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul etmişdir. Dövlət başçısı bildirdi ki, sosial sahədə aparılan islahatlar cari ildə də uğurla davam etdirilir. Məqsəd həmin islahatlar vasitəsilə Azərbaycan vətəndaşının rifah halını daha da yaxşılaşdırmaqdır. Prezident bu sahədə ötən il 4 milyondan artıq ölkə vətəndaşının maddi rifah halının yaxşılaşdırılması istiqamətində qəbul edilən iki sosial paketin əhəmiyyətini xüsusi qeyd etdi.

Sahil Babayev dövlət başçısının sərəncamları əsasında həyata keçirilən sosial islahatların başlıca məqsədlərindən birinin əhalinin pensiya təminatının yaxşılaşdırılması olduğunu bildirdi. Qeyd etdi ki, həmin dövlət sənədlərinin qəbulu sayəsində ölkədə minimum pensiyanın 72 faiz artması nəticəsində 660 min nəfərin pensiyasında ciddi artım oldu. Bununla həmçinin minimum pensiyanın alıcılıq qabiliyyəti parametri üzrə ölkəmiz MDB məkanında birinci yerdə qərarlaşdı. Əlavə olaraq xüsusi şərtlərlə pensiya alan 90 min nəfərin pensiyaları orta hesabla 31 faiz artdı. Bu da ölkə üzrə ötənilki paketin ümumilikdə 750 min insanı əhatə etməsi deməkdir.

*Ardı 3-cü səh.*

## Bu çətin günləri həm də dünya azərbaycanlılarının möhtəşəm həmrəyliyi kimi xatırlayacağıq

### Həmvətənlərimiz bütün qitələrdə darda qalan soydaşlarımızın harayına yetişirlər

**İnsanları insanlıq xilas edəcək. Bu, minillərin o üzündən adlayıb gələn gerçəkdir. Təbiətdəki kataklizmlər, dünyada baş verən iqtisadi, siyasi böhranlar yalnız insanlığın var olması ilə yenilə bilər. Birlik, bərabərliklə, darda qalana yardım əli uzatmaqla bütün çətinliklər aşıla bilər.**



### Qlobal bəlaya qarşı milli birliyin müqaviməti

Budur yenə dünya təhlükədədir. Yeni (COVID-19) koronavirus bəlası bəşəriyyətə savaş açıb, yer üzündə həyatın davamlı olmasını təhdid edir. İnsanları canları, sağlıqları ilə sınağa çəkir...

Artıq o zamandır ki, mal-mülk, milyonlar, vəzifə, torpaq uğrunda baş verən bütün qarğaşalar, müharibələr öz mahiyyətini itirib. İndi insanları düşündürən yeganə bir nəsnə var, o da yaşamaq...

İndi insanlığın əsl qayəsi yaşamaq uğrunda mübarizədə bir olmaqdır...

Ki bütün bu sadalanan mənəvi keyfiyyətlər də Azərbaycan xalqının özünəməxsusluqları arasında ilk yerdə durur...

Elə pandemiya hesab edilən koronavirusla mübarizədə də bunun ən bariz nümunəsini gördük, həmvətənlərimizlə bir daha qürur duyduq...

Bir-birini tanımayan yüzlərlə, minlərlə dünya azərbaycanlısı bu dəfə COVID-19-a görə çətin vəziyyətdə qalan həmyerlilərimiz üçün birlik-bərabərlik içərisində həmrəy oldu...

Dünya Səhiyyə Təşkilatı (DST) tərəfindən qlobal pandemiya hesab olunan koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının qarşısının alınması tədbirləri çərçivəsində "Azərbaycan Hava Yolları" və əcnəbi aviaşirkətlər tərəfindən bir çox istiqamətlər üzrə həyata keçirilən uçuşlar müvəqqəti olaraq dayandırıldı. Bu səbəbdən dünyanın müxtəlif ölkələrinə səfər edən həmvətənlilərimiz ölkəyə qayıda bilməyərək qərib diyarda maddi və mənəvi ziyanla üz-üzə qalmalı oldu. Amma onlar bu dar gündə tək deyildilər...

*Ardı 5-ci səh.*

## Dünya koronavirus bəlası qarşısında hələ də acizdir

### Azərbaycanda həyata keçirilən sosial izolyasiya tədbirləri virusun kütləvi epidemiyaya çevrilməsinin qarşısını almaqdadır

**Dünyanı cənginə alan koronavirusun əhatə dairəsi böyüməkdə davam edir. Müxtəlif ölkələrdə hər gün xəstəliyə yeni yoluxma halları, ölüm faktları qeydə alınır.**

Maraqlıdır ki, müasir texnologiyalar, innovativ yeniliklərlə süni intellekt formalaşdıran, yeni sürətlə inkişaf etməkdə olan elm və texnologiya əsrinin insanı bu virus qarşısında hələ də aciz durumdadır. Prosesin belə davam etməsi əlbəttə ki, koronavirusun qlobal pandemiyaya çevrilməsinə real zəmin yaradıb.

### Dövlət bütün mümkün qabaqlayıcı və operativ tədbirləri həyata keçirir

Hər gün Dünya Səhiyyə Təşkilatının yaydığı məlumatlara əsasən demək olar ki, xəstəliyin müalicəsi yoxdur, hətta dünyanın inkişaf etmiş ölkələri belə virusun qarşısını ala bilmirlər. Dünyada, ayrı-ayrı ölkələrdə ümumi mənzərəyə nəzər yetirsək acınacaqlı durumun şahidi olarıq. Avropa hazırda dünyada koronavirus pandemiyasının ən ağır şəkildə təzahür etdiyi regiondur. Avropada Çin istisna olmaqla dünyanın bütün digər ölkələrindən daha çox yoluxma və ölüm halı qeydə alınıb. Epidemiyanın Çində pik dövrü ilə müqayisədə Avropada hər gün daha çox yoluxma halı baş verir. Dövlətlərin sərhədləri bağlanıb, bütün hava uçuşları dayandırılıb.

*Ardı 5-ci səh.*

## Bərdə rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bərdə rayonunun əhalisi 34320 nəfər olan 21 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 23 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,61 milyon (bir milyon altı yüz on min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2020-ci il*

## A.T.Məlikovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğində xidmətlərinə görə Akif Turan oğlu Məlikov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2020-ci il*

## Rafael Məlik oğlu Dadaşov



Azərbaycan mədəni ictimaiyyətinə ağır itki üz vermişdir. Milli teatr və kino sənətinin tanınmış nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, respublikanın Xalq artisti Rafael Məlik oğlu Dadaşov 2020-ci il mart ayının 16-da ömrünün 75-ci ilində vəfat etmişdir.

Rafael Dadaşov 1946-cı il yanvarın 4-də Zaqatala rayonunda anadan olmuşdur. O, Naxçıvan şəhərində orta məktəbi bitirdikdən sonra 1966-1972-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif işi fakültəsində ali təhsil almışdır. 1967-ci ildən etibarən əmək fəaliyyətinə başlayan Rafael Dadaşov 1974-cü ilədək olan dövr ərzində Bakı Dövlət Sirkində, Naxçıvan Muxtar Respublikası Mahnı və Rəqs Ansamblında və Ümumittifaq Sirkində müxtəlif vəzifələrdə çalışmış, 1974-1976-cı illərdə Naxçıvan Muxtar Respublikasında Xalq Yaradıcılığı Evində təlimatçı olmuş, eyni zamanda, oranın Televiziya və Radio Komitəsində işləmişdir.

1976-cı ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasında aktyor kimi yaradıcılıq yoluna başlayan Rafael Dadaşov burada aparıcı səhnə ustası olaraq sənət fəaliyyətini ömrünün sonunadək davam etdirmişdir.

Rafael Dadaşovun aktyorluq yaradıcılığı müasir Azərbaycan mədəniyyətində özünəməxsus yer tutur. Ekranda və səhnədə canlandırdığı, təbiiliyi və inandırıcılığı ilə səciyyələnən rəngarəng xarakterli qəhrəmanlar onu sənətin incəliklərini dərindən mənimsəmiş yüksək səhnə mədəniyyətinə malik aktyor olaraq geniş tamaşaçı auditoriyasına sevdirmişdir.

Rafael Dadaşov teatr aləminə qədəm qoyduğu ilk vaxtlardan sənətsevərlərin qəlbinə yol tapmağa müvəffəq olmuşdur. O, Akademik Milli Dram Teatrının səhnəsində uzun illər ərzində müvəffəqiyyətlə çıxış edərək yüzə yaxın müxtəlif xarakterli yaddaqalan obrazlar qalereyası yaratmışdır. Sənətkarın klassik və müasir Azərbaycan ədəbiyyatına, dünya dramaturji irsinə müraciətlə səhnə həyatı verdiyi bu qəhrəmanlar teatrsevərlərin hafizəsinə həkk olunmuşdur.

Rafael Dadaşov yaradıcılıq potensialını televiziya və kino sahəsində də uğurla nümayiş etdirmişdir. İstedadlı aktyorun bədii filmlərdə və televiziya tamaşalarında məharətlə canlandırdığı obrazlar həmişə özünün fərqli psixoloji-emosional yozumu ilə səciyyələnmişdir. Onun televiziya tamaşalarında yaratdığı personajlar milli televiziyanın fondundakı dəyərli sənət nümunələri sırasında qorunub saxlanmaqdadır.

Rafael Dadaşovun Azərbaycan mədəniyyətinin inkişafı sahəsində göstərdiyi xidmətlər lazımınca qiymətləndirilmişdir. O, 1987-ci ildə respublikanın Əməkdar artisti, 2006-cı ildə Xalq artisti fəxri adlarına layiq görülmüş, 2019-cu ildə müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Tanınmış sənətkar, qayğıkeş və səmimi insan Rafael Məlik oğlu Dadaşovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham Əliyev, Mehriban Əliyeva, Əli Əsədov, Sahibə Qafarova, Samir Nuriyev, Eldar Əzizov, Əbülfəs Qarayev, Fərəh Əliyeva, Azər Paşa Nemətov, Şəfiqə Məmmədova, Mərahim Fərzəlibəyov, Rafiq Əzimov, Nurəddin Quliyev, Bəsti Cəfərova, Firəngiz Mütəllimova**

## Dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində respublikada çoxşaxəli işlər görülməkdədir. Müasir dövrün çağırışlarından biri kimi, dövlət orqanları və qurumlarının fəaliyyətinin səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsi sisteminin mərhələlərlə işlənməsi və tətbiqi dövlətimizin diqqət mərkəzindədir.

Bu baxımdan paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin müasir standartlara uyğun əsas səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsi üçün zəruri sistem hazırlanmış və qəbul edilmişdir.

Aparılan sosial-iqtisadi islahatlar, regionların inkişafına dövlətin göstərdiyi qayğı və diqqət nəzərə alınaraq, regionlarda sosial-iqtisadi inkişafın tamamilə yeni mərhələyə qədəm qoyması məqsədilə digər əməli tədbirlərlə yanaşı, səmərəliliyin qiymətləndirilməsi sisteminin yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə də şamil olunması imkanları təhlil edilməli və ən qabaqcıl dünya təcrübəsinin ölkəmizdə tətbiqinə başlanılmalıdır.

Eyni zamanda, dövlət nəzarətinin təşkili və icra intizamına əməl olunması istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasına, bu sahədə daha əhatəli və çevik mexanizmlər yaradılmasına ehtiyac vardır.

Qeyd edilən hədəflərə nail olunması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün yeni informasiya sistemi yaradılsın.

2. Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyi mütərəqqi dünya təcrübəsinə uyğun əsas səmərəlilik göstəriciləri üzrə qiymətləndirilsin.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, aşağıdakılar barədə təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1. yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi mexanizminin yaradılması və tətbiqi;

3.2. Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün səmərəli informasiya sisteminin iş qaydası.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti dövlət orqanları və qurumları tərəfindən icra intizamına əməl olunması vəziyyətini təhlil etsin və icra intizamının pozulması halları, onlara yol verən dövlət orqanları və qurumları barədə Azərbaycan Respublikasının Prezidentinə ildə iki dəfə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2020-ci il*

## "Azərbaycan Respublikasının Moskva şəhəri ilə əməkdaşlıq üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 10 oktyabr tarixli 1724 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Moskva şəhəri ilə əməkdaşlıq üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 10 oktyabr tarixli 1724 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 865; 2009, № 7, maddə 589; 2012, № 2, maddə 139; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384) 1-ci hissəsi ilə təsdiq edilmiş Hökumət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

"**Komissiyanın həmsədri**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Komissiyanın üzvləri

Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini

Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini

Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Təhsil nazirinin müavini

Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Rusiya Federasiyası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2020-ci il*

## "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1711) aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. həmin Qanunun 7.7-ci, 7.8-ci, 7.9-cu, 7.10-cu maddələrində, 7.11-ci maddəsinin ikinci cümləsində (birinci halda), 7.14-cü maddəsinin ikinci cümləsində (ikinci halda), 9.1-ci maddəsində, 13.5-ci maddəsinin ikinci cümləsində, 13.9-cu, 13.10-cu (ikinci halda) maddələrində, 13.12-ci maddəsinin ikinci cümləsində, 14.9-cu maddəsinin ikinci cümləsində, 15.1-ci, 16.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 mart tarixli Sərəncamına Əlavə

### Bərdə rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Bala Qacar kəndi | 1 | 895 |
| 2. | Birinci Qaradəmirçi kəndi | 1 | 2197 |
| 3. | Cicimli kəndi | 1 | 345 |
| 4. | Dəymədağıldı kəndi | 1 | 2014 |
| 5. | Əmirli kəndi | 1 | 2023 |
| 6. | Hacallı kəndi | 1 | 1719 |
| 7. | Xanərəb kəndi | 1 | 2249 |
| 8. | İkinci Hacallı kəndi | 1 | 1524 |
| 9. | İkinci Qaradəmirçi kəndi | 1 | 537 |
| 10. | Kətəlparaq kəndi | 1 | 3522 |
| 11. | Qayalı kəndi | 1 | 402 |
| 12. | Qazaxlar kəndi | 1 | 643 |
| 13. | Qazıqurdalı kəndi | 1 | 1218 |
| 14. | Lənbəran kəndi | 1 | 5529 |
| 15. | Piyadalar kəndi | 1 | 358 |
| 16. | Soğanverdilər kəndi | 2 | 1812 |
| 17. | Şahvəlilər kəndi | 2 | 1144 |
| 18. | Şatırlı kəndi | 1 | 636 |
| 19. | Şərəfli kəndi | 1 | 354 |
| 20. | Şirvanlı kəndi | 1 | 2304 |
| 21. | Yeni Daşkənd kəndi | 1 | 2895 |
| **Cəmi** | | **23** | **34 320** |

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1673-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700) 5.64-cü bəndində "562.3-cü maddəsində" sözləri "391-1 və 562.3-cü maddələrində" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426; № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 3.3-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. Məcəllənin 391-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Qeydiyyat və notariat baş idarəsinin rəisi, onun müavini, Nazirliyin yanında Dövlət notariat arxivinin müdiri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının qeydiyyat və notariat üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi yanında Dövlət notariat arxivinin müdiri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 51 nömrəli Fərmanı ilə təsdiq edilmiş "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 51 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, №12, maddə 765; 2009, № 6, maddə 423) ilə təsdiq edilmiş "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə"nin 5-ci hissəsinin birinci bəndinə "haqqında" sözündən sonra "bu Əsasnamənin əlavəsində müəyyən olunmuş formada" sözləri əlavə edilsin və həmin hissənin ikinci bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 51 nömrəli Fərmanı ilə təsdiq edilmiş "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə"yə əlavə

### "20 Yanvar şəhidi" fəxri adının vəsiqəsinin təsviri

1. "20 Yanvar şəhidi" fəxri adının vəsiqəsi (bundan sonra - vəsiqə) 7smx19,5sm ölçülü cilddən ibarətdir. Vəsiqə qırmızı rəngdədir, vəsiqənin cildinin üst tərəfində, ortada qızılı rənglə "20 YANVAR ŞƏHİDİ" FƏXRİ ADININ VƏSİQƏSİ" sözləri yazılmışdır.

2. Vəsiqənin içliyinin birinci səhifəsində yuxarıda ortada Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsviri verilir, onun altında "20 YANVAR ŞƏHİDİ" FƏXRİ ADININ VƏSİQƏSİ", həmin sözlərin altında "№___" işarəsi, onun da altında "Azərbaycan Respublikası Prezidentinin ___il "____" _____tarixli _____nömrəli _____________ ilə" sözləri yazılır.

3. Vəsiqənin içliyinin ikinci səhifəsində birinci sətrin altında ortada "soyadı", ikinci sətrin altında ortada "adı", üçüncü sətrin altında ortada "atasının adı" sözləri, onun altında sol tərəfdən başlayaraq "20 Yanvar şəhidi" fəxri adı verilmişdir." cümləsi, həmin cümlənin altında isə "Azərbaycan Respublikasının Prezidenti" sözləri yazılır.

"20 Yanvar şəhidi" fəxri adının vəsiqəsinin eskizi




## "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 474; 2015, № 9, maddə 990; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 31 yanvar tarixli 921 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-1-ci və 3.5-ci bəndlərdə "Dövlət Dəniz Administrasiyası" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. 3.3-cü bənddən "12.1-ci," sözləri çıxarılsın və həmin bənddə "Dövlət Dəniz Administrasiyası" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

"3.4-1. həmin Qanunun 12.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2020-ci il*

# Hökumət sahibkarlara dəstək üçün təkliflər hazırlayır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə martın 17-də Baş Nazir Əli Əsədovun yanında iqtisadi məsələləri müzakirə etmək üçün hökumətin iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda koronavirus pandemiyasının qlobal miqyasda yaratdığı mənfi mühitin Azərbaycan iqtisadiyyatına mümkün təsirləri və qabaqlayıcı tədbirlər haqqında müzakirələr aparılıb.

Hökumətə tapşırılıb ki, bir həftə ərzində ticarət, ictimai iaşə və nəqliyyat sahələrində tətbiq edilən məhdudlaşdırıcı tədbirlərin təsiri nəticəsində sahibkarlara dəyə biləcək itkilərin minimuma endirilməsi üçün dövlət tərəfindən müxtəlif formalarda dəstək verilməsi də daxil olmaqla təkliflər paketi hazırlasın.

# Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirus epidemiyası ilə bağlı vəziyyəti və vətəndaşların təxliyəsi məsələsini müzakirə edib

Ölkə ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə tədbirlər davam etdirilir.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 17-də Baş Nazir Əli Əsədovun sədrliyi ilə keçirilən iclasda koronavirus epidemiyası ilə bağlı ölkədəki vəziyyət və hadisələrin mümkün inkişafı variantları, müxtəlif variantlarda hansı tədbirlərin görüləcəyi müzakirə olunub.



Baş Nazir İtaliya, Türkiyə, Macarıstan və buraya yaxın ölkələrdən Azərbaycana qayıdan vətəndaşlarımızın karantinə yerləşdiriləcəyi barədə məlumat verib. İclasda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan və Rusiya vətəndaşlarının qarşılıqlı səfərlərinin 2020-ci il martın 18-də saat 00.00-dan etibarən müvəqqəti olaraq dayandırılması barədə də qərar qəbul edildiyi vurğulanıb. Qeyd olunub ki, ölkəyə qayıtmaq istəyən Azərbaycan vətəndaşları üçün çarter reysləri təşkil ediləcək.

İclasda həmçinin martın 19-da saat 00:00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılmasının martın 29-dək dayandırıldığı barədə də məlumat verilib.

# “Dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam idarəetmədə insan faktorunun azalmasına hesablanıb

Prezident İlham Əliyevin 17 mart 2020-ci il tarixli “Dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” sərəncamı idarəetmədə insan faktorunun azalmasına hesablanıb. Ötən ildən başlayaraq struktur və hökumət qurumlarının fəaliyyətinin yüksəldilməsi sahəsində həyata keçirilən islahatlar idarəetməyə yeni fəlsəfə gətirib. Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri Əziz Əlibəyli bu barədə AZƏRTAC-a verdiyi müsahibədə deyib.

Onun dediyinə görə, dövlət başçısı proaktiv idarəçilik, ictimai rəy dövlətinin qurulması, ictimai nəzarətin artırılması, hesabatlılıq mühitinin formalaşdırılması üçün əsaslı addımlar atıb: “Yeni sərəncam idarəetmədə çevikliyə, hesabatlılığa, səbəb olacaq, qərarların icrası, ona nəzarət və innovativ üsullarla yeni təfəkkür mexanizminin yaranmasına xidmət edəcək. Xüsusilə son vaxtlar yerli icra strukturlarına yönəlmiş xəbərdarlıqlar, bəzi struktur rəhbərlərinin yol verdikləri nöqsanlara görə vəzifələrindən azad edilməsi və vəzifə səlahiyyətlərindən vətəndaşların xeyrinə deyil, şəxsi məqsədləri üçün istifadə etməsi belə bir sərəncamın verilməsini zəruri edib. Sərəncamla yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi mexanizminin yaradılması və tətbiqi həyata keçiriləcək, icra intizamının pozulması halları aşkarlanacaq, ən əsası bu proses onlayn qaydada həyata keçiriləcək. Nəticədə dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən islahatlar paketinin təsirliliyi, dövlət idarəetməsinin şəffaflaşdırılması və onlara ümumi nəzarət daha rahat şəkildə təmin ediləcək”.

# Qubadlıdan olan aztəminatlı məcburi köçkün ailələrinə Novruz sovqatı paylanılıb

Bu gün xalqımız Novruzun çərşənbələrindən sonuncusu - İlaxır çərşənbəni qeyd edir. Novruz ərəfəsində sonuncu çərşənbədə yer oyanır, torpaq nəfəs alır. Bu çərşənbə xalq arasında Torpaq çərşənbəsi də adlanır.

Sumqayıtda məskunlaşan Qubadlıdan olan 500 aztəminatlı məcburi köçkün ailəsinə, o cümlədən şəhid ailələri, Qarabağ əlili, yataq xəstələrinə İlaxır çərşənbə münasibətilə Qubadlı Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə ərzaq bağlamaları paylanılıb.

**AZƏRTAC**

**Milli Məclisin iclasında**

# Parlamentdə koronavirus müzakirələri

## Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarının pozulmasına görə məsuliyyət sərtləşdirilir


















*Əvvəli 1-ci səh.*

Müzakirələr zamanı Milli Məclis Sədrinin müavini Adil Əliyev, komitə sədrləri Əhliman Əmiraslanov, Zahid Oruc, Qənirə Paşayeva, deputatlardan Rəşad Mahmudov, Hikmət Məmmədov, Jalə Əliyeva ölkəmizdə koronavirusla bağlı mübarizə işini təqdir etdilər. Çıxışlarda qeyd olundu ki, ölkəmizdə bu təhlükəli virus ilə mübarizə aparmaq üçün genişmiqyaslı və yüksək səviyyəli tədbirlər həyata keçirilir. Bu məsələdə vətəndaşların üzərinə də böyük məsuliyyət düşür.

Çıxışlardan sonra hər iki qanun layihəsi təsdiq olundu.

### Özəl tibb müəssisələrində yoxlamalar bərpa olunur

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi. Bildirdi ki, bu qanunun 2.1-ci maddəsində göstərilən yoxlamalar istisna olmaqla, respublikamızda sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılıb. Təklif olunan dəyişikliyə əsasən həmin istisnaya özəl tibb fəaliyyətinin subyektlərində aparılan yoxlamalar da əlavə olunur. Bununla da müvafiq icra hakimiyyəti orqanı tərəfindən özəl tibb fəaliyyətinin subyektlərində yoxlamaların aparılmasına hüquqi əsaslar yaranır.

Qanuna dəyişiklik özəl tibb fəaliyyəti subyektləri tərəfindən səhiyyə qanunvericiliyinə əməl olunmasına nəzarətin gücləndirilməsinə, onların fəaliyyətinin səmərliliyinin yüksəldilməsinə xidmət edir. Bununla da əhalinin sağlamlığının özəl tibb fəaliyyəti subyektləri tərəfindən daha keyfiyyətli qorunmasına nail olunacaq.

Deputatlardan Əli Məsimli, Naqif Həmzəyev, İlham Məmmədov, Razi Nurullayev və Nigar Arpadarai qanun layihəsinə münasibət bildirdilər.

Qanun layihəsi təsdiq olundu.

### Dezinformasiyanın qarşısının alınmasının hüquqi əsasları gücləndirilir

İclasda son olaraq “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi də müzakirə olundu. Layihə ilə bağlı Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məlumat verdi. Qeyd edildi ki, qanun layihəsinin məqsədi kiberməkanda cəmiyyətin maraqlarına zidd materialların, ictimai-siyasi sabitliyin pozulmasına yönəlmiş məlumatların yayılmasının, ictimaiyyətə dezinformasiya verilməsi hallarının artmasının qarşısının alınmasıdır. Layihə üzrə hüquqi tənzimləmə predmeti insan həyat və sağlamlığına zərər vurulmasına, əhəmiyyətli əmlak ziyanının törədilməsinə, ictimai təhlükəsizliyin kütləvi şəkildə pozulmasına, maliyyə, rabitə, nəqliyyat, sənaye, energetika və sosial infrastruktur obyektlərinin fəaliyyətinin pozulmasına və ya başqa ictimai təhlükənin baş verməsinə səbəb olan yalan məlumatların yayılmasının qarşısının alınması üçün əsasların yaradılmasıdır.

Müzakirələr zamanı çıxış edən komitə sədrləri Qənirə Paşayeva, Hicran Hüseynova, Tahir Mirkişili, deputatlardan Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Elşad Mirbəşir oğlu, Musa Qasımlı, Erkin Qədirli, Arzu Nağıyev, Fəzail Ağamalı layihə ilə bağlı fikirlərini bildirdilər. Yekunda qanun layihəsi təsdiq edildi.

Sonda Milli Məcilisin Sədri Sahibə Qafarova müzakirələrin səmərəli keçdiyini bildirdi. Spiker qarşıdan gələn Novruz bayramı münasibətilə deputatları və media nümayəndələrini təbrik etdi.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi prioritet vəzifə olaraq qalır

## Prezident İlham ƏLİYEV: “Vətəndaşlarımızın sosial vəziyyəti ildən-ilə daha da yaxşılaşdırılacaq”

*Əvvəli 1-ci səh.*

Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində cari ildə də zəruri tədbirlər görülür. Belə ki, Prezidentin imzaladığı sərəncamla cari ildə bütün pensiyalar 16,6 faiz indeksləşdirildi. Bunun nəticəsində ölkə üzrə bütün pensiyaların orta aylıq səviyyəsi 300 manata yüksəldi. Yaşa görə pensiyalarda isə bu səviyyə 350 manata çatdı.

Dövlət əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən islahatlar zamanı lazım olan məbləğdə vəsait ayırır. Məsələn, son islahatların maliyyə dəyəri 560 milyon manata bərabərdir. Təkcə cari ildə indeksləşdirmə hesabına pensiyaçılara əlavə olaraq 550 milyon manat vəsait ödəniləcək. Ümumilikdə cəmi bir il ərzində qəbul edilən qərarların icrası üçün pensiyaçılara 1 milyard manatdan artıq vəsait ödənilir.

Pensiya almayan, lakin sosial müdafiəyə ehtiyacı olan ailələr də unudulmur. Yəni əhalinin sosial müdafiəsi gücləndirilərkən bu kateqoriyadan olan insanların ehtiyacları da nəzərə alınır. Prezident qəbulda dövlətin bu sahəyə xüsusi diqqət yetirdiyini bildirərək demişdir: “Ünvanlı sosial yardımla bağlı sizə göstəriş vermişdim ki, onun əhatə dairəsi genişləndirilsin. Son müddət ərzində iqtisadi sahədə canlanma var, iqtisadi artım təmin edilir, o cümlədən sənaye istehsalında, - qeyri-neft sektorunda sənaye istehsalı təqribən 15 faizə yaxın artıbdır, - yeni iş yerləri yaradılır, vətəndaşlar üçün yeni imkanlar açılır. Ancaq buna baxmayaraq, mən göstəriş vermişdim ki, hələ də dövlət dəstəyinə ehtiyac olan vətəndaşların dövlət təminatı təmin edilsin və bu vətəndaşların sayı artırılsın”.

Dövlət başçısına məlumat verildi ki, ötən ilin sonunda ünvanlı sosial yardım mexanizminə cəlb edilən insanların sayı 72 min nəfər olub. Halbuki həmin ilin əvvəlində bu rəqəm 40 min idi. Yəni bir il ərzində 50-70 faizlik artım qeydə alınıb. Cari ildə isə bu istiqamətdə dövlət büdcəsindən ayrılan vəsait hesabına 85-90 min ailənin ünvanlı sosial yardımla əhatə olunması planlaşdırılır ki, bu da proqramla əhatə olunanların sayının 20 faiz artması deməkdir.

Həmin kateqoriyadan olan insanların həyat şəraitini yaxşılaşdırmaq üçün görülən tədbirlər mütəmadi xarakter daşıyır. Belə ki, onların ehtiyac meyarı bir il ərzində 10 faizdən çox artırılaraq 143 manatdan 160 manata çatdırıldı. Əgər 2018-ci ildə ünvanlı sosial yardımın məbləği 160 manat idisə, indi bu rəqəm 200 manatdır. Lakin bu, son hədd deyil, cari ildə həmin rəqəmin 215-220 manat civarında olacağı nəzərdə tutulur.

Əhalinin sosial müdafiəsinin ən səmərəli forması məşğulluğun təmin edilməsidir. Bu səbəbdən aparılan islahatların bir istiqaməti də əhalinin özünüməşğulluq proqramına cəlb olunmasıdır. Əgər 2017-ci ildə bu proqrama 1500 ailə cəlb edilmişdisə, 2018-ci ildə o, 7 min, 2019-cu ildə 10 min ailəni əhatə edib. Cari ildə isə daha 11 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi planlaşdırılır.

Onu da qeyd edək ki, özünüməşğulluq proqramının əhatə dairəsi və coğrafiyası genişlənir. Əgər birinci ildə bu proqramdan faydalananların 82 faizi kənd təsərrüfatı ilə məşğul olanlar idisə, indi istehsal və xidmət sahələri də bu proqramlara cəlb edilir. Bu isə şəhər ərazilərində əhalinin özünüməşğulluğu, kiçik və mikrobiznesin inkişafı baxımından son dərəcə əhəmiyyətlidir.

Prezident İlham Əliyev bir daha qeyri-formal məşğulluğun aradan qaldırılmasının əhəmiyyətini vurğulayaraq bildirdi ki, son müddət ərzində 300 mindən çox işçi ilə əmək müqaviləsi bağlanıb. Çünki qeyri-rəsmi işləyənlərin gələcəkdə nə pensiyası, nə də sosial sığortası olacaq. Xüsusilə qeyd etdi ki, cari ildən başlayaraq ölkə ərazisində icbari tibbi sığorta sistemi tətbiq olunduğu üçün vətəndaşların özləri bu işə məsuliyyətlə yanaşmalı və əmək müqaviləsinin bağlanmasını tələb etməlidirlər.

Dövlət başçısına məlumat verildi ki, həmin istiqamətdə görülən tədbirlər sayəsində təkcə cari ildə özəl sektorda əmək müqavilələrinin sayı 100 min artıb, həmçinin dövlət sektorunda əlavə olaraq 53 min artım müşahidə edilib. Bunun sayəsində əməkhaqqı fondunda 42 faiz artım qeydə alınıb.

Əhalinin məşğulluğunun təmin edilməsinin bir forması da DOST Agentliyi tərəfindən vətəndaşların ödənişli işlərə cəlb edilməsidir. Ötən il DOST İş Mərkəzi vasitəsilə 38 min işsiz vətəndaşın məşğulluğu təmin olunub.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Azərbaycan “İqtisadi azadlıq indeksi”nə görə top islahatçılar sırasındadır

ABŞ-ın “İrs Fondu”nun hazırladığı “İqtisadi azadlıq indeksi”nə görə Azərbaycan bu il mövqeyini 16 pillə yaxşılaşdıraraq dünyada 44-cü pilləyə yüksəlib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı AZƏRTAC-a deyib ki, Azərbaycan dünyada “İqtisadi azadlıq indeksi”ni ən çox təkmilləşdirən 11 ölkə sırasındadır.

“Prezident İlham Əliyev tərəfindən aparılan sistemli iqtisadi islahatların daha bir beynəlxalq uğurunun şahidiyik. Çünki “İqtisadi azadlıq indeksi”nin tarixində ölkəmiz qədər irəliləyiş edən ikinci bir ölkə yoxdur. Beləliklə, Azərbaycan əsasən azad ölkələrin sırasında mövqelərini daha da möhkəmləndirib. Azərbaycanın bu irəliləyişi biznes, investisiya azadlığı və fiskal sağlamlıq göstəricilərinə görə əldə etdiyi nailiyyətlərə əsaslanır. Azərbaycan “İqtisadi azadlıq indeksi”nə görə Polşa, Belçika, Portuqaliya, İspaniya və Fransa kimi Avropa ölkələrini geridə qoyub. Ölkəmiz Avropa regionunda “İqtisadi azadlıq indeksi”ni ən çox yaxşılaşdıran ölkə kimi qiymətləndirilib. Azərbaycanın “İqtisadi azadlıq indeksi” Avropanın orta göstəricisinə təxminən bərabərdir. Bu ildən etibarən “İrs Fondu” Azərbaycanı Asiya-Sakit Okean deyil, Avropa ölkəsi kimi qiymətləndirib”, - deyə o bildirib.

# Azərbaycan Ordusunda görülən işlər daim Ali Baş Komandanın diqqət mərkəzindədir





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev və nazirliyin digər rəhbər heyəti ön xətdə yerləşən hərbi hissələrdən birində olublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitlə tanışlıqdan sonra zirehli döyüş texnikası üçün saxlanclara, avtoparka, zabit və əsgər yataqxanalarına, qazanxana, camaşırxana, tibb məntəqəsi, ərzaq və əşya anbarları, eləcə də digər xidməti və inzibati otaqlara baxış keçirilib.

Müdafiə nazirinin əmri ilə döyüş texnikasının təlim-həyəcan siqnalı ilə əraziyə çıxarılması tapşırığı uğurla icra olunub.

Qoşunların təmas xəttindəki əməliyyat şəraiti barədə məruzələri dinlədikdən və bölmələrdəki vəziyyətlə tanışlıqdan sonra general-polkovnik Zakir Həsənov və general-polkovnik Məhərrəm Əliyev düşmən mövqelərini müşahidə ediblər. Müdafiə naziri bölmələrin daim döyüşə hazır vəziyyətdə olması barədə müvafiq tapşırıqlar verib.

Sonra Horadiz şəhərində aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib.

Ön xətdə olan Müdafiə naziri Lələtəpə istiqamətindəki döyüş mövqelərində xidmət edən hərbi qulluqçularla görüşüb, onların xidmət şəraiti ilə maraqlanıb.

Şəxsi heyətlə görüş zamanı Ali Baş Komandanın rəhbərliyi ilə aparılan genişmiqyaslı hərbi islahatlar, həmçinin hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması barədə danışan general-polkovnik Məhərrəm Əliyev bu məsələlərin ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğunu vurğulayıb.

Sonda Novruz bayramı münasibətilə Ali Baş Komandanın təbrikləri şəxsi heyətə çatdırılıb, ön xətdə xidmət edən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim olunub və onlarla bayram süfrəsi arxasında söhbət aparılıb.

# Milli Məclisin İqtisadi siyasət, sənaye, sahibkarlıq komitəsinin iclası keçirilib

Martın 17-də Milli Məclisin İqtisadi siyasət, sənaye, sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Tahir Mirkişili Milli Məclisin üzvlərini təbrik edərək onlara gələcək fəaliyyətində uğurlar arzulayıb.

Komitə sədri bildirib ki, bu gün dünyada baş verən hadisələr, xüsusilə koronavirus infeksiyasının yayılması iqtisadiyyatda yeni bir reallıq yaratmaqdadır. Hazırda iqtisadi fəallığın aşağı düşməsi, bir çox xidmət sahələrində, o cümlədən turizm, logistika, təhsil, digər sahələrdə məhdudiyyətlərin tətbiq olunması dünya iqtisadiyyatında ləngimə ilə bağlı proqnozların verilməsinə səbəb olub. Dünya artıq yeni mərhələyə qədəm qoyur və bu mərhələdə əsas məsələ inamın bərpa olunması və stimullaşdırıcı tədbirlərin görülməsi ilə bağlıdır. Diqqətə çatdırılıb ki, Azərbaycanda son illər sürətlə həyata keçirilən sosial-iqtisadi islahatlar ümummilli məqsədlərə xidmət edir. Bu islahatlar qısa zaman ərzində nəticəsini verib. Əhalinin maddi rifah halını qorumaq üçün dövlətimizin kifayət qədər imkanları mövcuddur.

Qeyd edilib ki, komitənin qarşısında duran əsas məsələ fəaliyyətini Azərbaycan Prezidentinin Milli Məclisin martın 10-da keçirilmiş plenar iclasında söylədiyi tövsiyələr üzərində qurmaqdır. Tahir Mirkişili bildirib ki, qəbul olunmuş qanunların təftiş olunması, qanunların təkmilləşdirilməsi ilə bağlı təşəbbüslərlə çıxış etmək, qanunların icra mexanizmləri ilə yerlərdə tanış olmaq, toplanan bütün məlumatlarla bağlı vahid mövqedən çıxış etmək məqbul hesab edilir.

Sonra komitə sədri gündəliyə daxil edilən məsələlər barədə məlumat verib. Bildirib ki, gündəlikdə ilk məsələ V çağırış Milli Məclisin 2019-cu ilin payız sessiyası dövründə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin gördüyü işlər barədə hesabatı və VI çağırış Milli Məclisin 2020-ci ilin yaz sessiyası üçün komitənin qanunvericilik işləri planıdır. Qeyd olunub ki, yaz sessiyasında 3 sənədin - "Lombardlar haqqında", "Kabel televiziyası haqqında" və "Turizm haqqında" qanun layihələrinin müzakirəsi və qəbul edilməsi nəzərdə tutulub.

Deputatlar Vahid Əhmədov, Əli Məsimli, Vüqar Bayramov, Məşhur Məmmədov yaz sessiyasının iş planına bir sıra təkliflər veriblər. Komitə sədri təkliflərə münasibət bildirib.

Sonra gündəlikdəki qanun layihələrinə baxılıb. Əvvəlcə "Quru limanlar haqqında" Hökumətlərarası Sazişə qoşulmaq barədə qanun layihəsi haqqında məlumat verilib. Qeyd olunub ki, saziş 2013-cü il noyabrın 7-də Banqkok şəhərində imzalanıb. Sazişdə quru limanların milli proqramlar çərçivəsində və milli qanun və qaydalara uyğun olaraq inkişaf etdirilməsi nəzərdə tutulur. Burada habelə sazişin imzalanması, ratifikasiyası, qəbuletmə, təsdiqetmə və qoşulma, sənədin qüvvəyə minməsi kimi məsələlər tənzimlənir. Eyni zamanda sazişin icrası ilə bağlı məsələlərə və təklif olunan düzəlişlərə baxılması üçün quru limanlar üzrə işçi qrupun yaradılması, əsas mətnə və əlavələrə düzəlişlərin edilməsi proseduru, sazişdən çıxma, sazişin qüvvəsinin dayandırılması, mübahisələrin həlli və digər məqamlarla bağlı bəndlər öz əksini tapıb.

Sonra Tahir Mirkişili "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının və Türkmənistanın rabitə operatorları tərəfindən Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" sazişin təsdiq edilməsi barədə qanun layihəsi haqqında məlumat verib. Bildirilib ki, sənədə görə, tərəflər Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik kabel magistralının çəkilməsi və telekommunikasiya sahəsinə sərmayələrin cəlb olunması məqsədilə razılığa gəliblər. Saziş 2019-cu il noyabrın 28-də Aşqabad şəhərində imzalanıb.

Sonra birinci oxunuşda təqdim olunmuş "Təhsil haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihəyə baxılıb. Qeyd edilib ki, dəyişikliklər əsasən texniki xarakter daşıyır.

İclasın sonunda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Ombudsmanın BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığında bir sıra görüşləri olub

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti İsveçrənin Cenevrə şəhərində BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının müavini Nada Al Naşif, Komissarlığın bir sıra yüksək rütbəli rəsmiləri, o cümlədən UNICEF-in regional direktoru Əfşan Xan ilə görüşüb.

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlər zamanı müvəkkil fəaliyyətə başladığı dövr ərzində insan hüquqlarının səmərəli müdafiəsi sahəsində görülən işlər, həmçinin təsisatın prioritet istiqamətləri barəsində geniş məlumat verib.

Qeyd olunub ki, Azərbaycanda Ombudsman institutu yarandığı ilk gündən etibarən beynəlxalq təşkilatlar, o cümlədən BMT və onun alt qurumları ilə səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasına və inkişafına xüsusi diqqət göstərib. Təsisatın 2006-cı ildən Milli İnsan Hüquqları İnstitutu qismində BMT-də akkreditasiyadan keçdiyini qeyd edən Səbinə Əliyeva Ombudsmanın bu təşkilatın saziş qurumları ilə yaxın əməkdaşlıq qurduğunu, hazırkı dövrə qədər insan hüquqlarının müxtəlif sahələri üzrə əlavə hesabatlar, o cümlədən qurumun İnsan Hüquqları Şurasına həm yazılı, həm də şifahi bəyanatlar təqdim etdiyini bildirib.

Ölkəmizdə insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi sahəsində mühüm işlərin görüldüyünü qeyd edən müvəkkil Azərbaycan Prezidentinin cəza siyasətinin humanistləşdirilməsi, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəzaların tətbiqinin genişləndirilməsinə dair imzaladığı sərəncam barədə məlumat verib. Bu sərəncamdan irəli gələn məsələlərin yerinə yetirilməsi prosesində Ombudsman təsisatının da fəal iştirak etdiyi diqqətə çatdırılıb.

Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə və işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal olunduğunu, bunun nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün öz doğma yurdlarından didərgin düşdüyünü xanım Naşifin diqqətinə çatdıran müvəkkil işğal altındakı Dağlıq Qarabağda və ətraf rayonlarda separatçı rejimin mövcudluğunun beynəlxalq hüquq normalarının kobud surətdə pozulması, eləcə də ölkələrin ərazi bütövlüyünün toxunulmazlığı prinsipinə zidd olduğunu vurğulayıb.

Qeyd olunub ki, hazırda məcburi köçkünlərin, qaçqınların və miqrantların hüquq və azadlıqlarının müdafiəsinin təmin olunması Ombudsmanın fəaliyyətində prioritet istiqamətlərdən biridir.

S.Əliyeva BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ölkə üzrə nümayəndəliyinin rəhbəri ilə görüşdə iki qurum arasında mövcud əməkdaşlığın genişləndirilməsi məqsədilə yeni və daha uzunmüddətli anlaşma memorandumunun imzalanmasını təklif edib.

Ombudsmanın ölkəmizdə ayrı-seçkiliklə mübarizə sahəsində fəaliyyəti barədə məlumat verən müvəkkil təsisatın 2019-cu ildən etibarən Avropa İttifaqının və Avropa Şurasının birgə dəstəyi ilə həyata keçirilən "Şərq tərəfdaşlığı ölkələrində ayrı-seçkilik, nifrət zəminində cinayət qurbanlarının hüquqlarının müdafiəsi üçün məhkəmədənkənar mexanizmlər vasitəsilə ədliyyəyə çıxış imkanlarının (əlçatanlığının) gücləndirilməsi" adlı regional layihəyə qoşulduğunu və bu layihə çərçivəsində bir sıra beynəlxalq tədbirlərdə, seminarlarda təmsil olunmaqla yanaşı, qurumun əməkdaşlarının bilik və təcrübələrini gücləndirmək məqsədilə milli azlıqların, həmçinin yerli icmaların nümayəndələrinin də iştirakı ilə Qubada təlim-seminarın keçirildiyini qeyd edib. Bildirilib ki, Milli İnsan Hüquqları institutlarının fəaliyyətində beynəlxalq meyarlar kimi qəbul edilən Paris Prinsiplərinin də tələbi olan ayrı-seçkiliklə mübarizə sahəsində Ombudsmanın mandatının genişləndirilməsi qarşıda duran mühüm məsələlərdəndir.

UNICEF-in regional direktoru xanım Əfşan Xan ilə görüş zamanı ölkəmizdə uşaq hüquqlarının səmərəli müdafiəsinin daim müvəkkilin diqqət mərkəzində olduğu bildirilib, bu istiqamətdə sözügedən qurumun ölkə nümayəndəliyinin rəhbəri ilə yaxından əməkdaşlıq edildiyi diqqətə çatdırılıb.

Müvəkkil UNICEF-in ölkə üzrə nümayəndəsi Edvard Karvardin ilə görüşdüyünü bildirərək, "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda Ombudsmanın vahid "Qaynar xətt" xidmətinin yaradılması məsələsinin müzakirə edildiyini qeyd edib. Bu il təsisatla UNICEF arasında birgə əməkdaşlığa dair fəaliyyət planının imzalandığı vurğulanıb.

# Prezidentin yeni hədəfləri - Azərbaycanın növbəti inkişaf kursu

## Müstəqillik və tərəqqi yolu ilə irəli

*Əvvəli 1-ci səh.*

Bundan başqa, 2018-ci ilin Prezident seçkilərindən sonra ölkədə bütün səviyyələrdə struktur və kadr islahatları sahəsində aparılan islahatların təbii olaraq Milli Məclisi də əhatə etməsinə nail olmaq vəzifəsi Azərbaycan cəmiyyətinin inkişaf dialektikasının harmoniyası baxımından həlli zəruri olan problemlərdən biridir. Çünki həqiqətən də hakimiyyətin bütün qollarında aparılan islahatların bir-birini tamamlamasına nail olmadan bütövlükdə cəmiyyətin tam şəkildə inkişafını təmin etmək mümkün deyildir.

Ölkənin siyasi sistemində və idarəetmə strukturlarındakı mənzərəni aydın şəkildə görən Prezident İlham Əliyevin Milli Məclisə növbədənkənar seçkilərə getmək haqqında qərar qəbul etməsinin ən mühüm səbəblərindən biri də siyasi sistemin real islahatları naminə struktur və kadr islahatlarını da tamamlamaqdan ibarət olmuşdur. Dövlət başçısının Milli Məclisdəki nitqində ifadə olunmuş aşağıdakı mətləblər ölkədəki islahatların məntiqi davamını dərindən başa düşməyə əsas verir: *"Son müddət ərzində Prezident Administrasiyası demək olar ki, tam yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır. Nazirlər Kabineti yeni tərkibdə formalaşmışdır. Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir. Nazirliklərdə də kadr islahatları aparılmışdır, yerli icra orqanlarında da bu islahatlar aparılır və aparılacaq... Ona görə də islahatların dərinləşməsi əlbəttə ki, parlamentdən yan keçə bilməzdi. Hesab edirəm ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcəkdir".*

Azərbaycan Respublikasının VI çağırış Milli Məclisinin rəhbər heyətinin seçilmiş yeni tərkibi Prezident İlham Əliyevin bütövlükdə ölkədə modern cəmiyyət quruculuğuna nail olmaq və siyasi sistemi təkmilləşdirib inkişaf etdirmək konsepsiyasının reallıqlarını əks etdirir.

*Əvvəla,* Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq qadın deputatın parlamentin sədri vəzifəsinə seçilməsi ölkəmizdə demokratik dövlət quruculuğunun əməli göstəricilərindən biridir. Bundan əvvəl iki çağırış Milli Məclisin deputatı kimi səmərəli fəaliyyət göstərmiş, beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını ləyaqətlə təmsil etmiş filologiya elmləri doktoru, professor Sahibə Qafarovanın parlamentin sədri vəzifəsinə namizədliyinin yekdilliklə dəstəklənməsi siyasi etimada ehtiramın ifadəsi olmaqla bərabər, həm də demokratik dövlət quruculuğu prosesinin inkişaf etdirilib möhkəmləndirilməsinin bütün siyasi qüvvələr tərəfindən müdafiə olunması deməkdir.

*İkincisi,* Milli Məclisin sədarətində yenə də ilk dəfə olaraq hakim Yeni Azərbaycan Partiyasının və bitərəflərin nümayəndələri ilə yanaşı, müxalifət partiyasını təmsil edən deputatın seçilməsi respublikamızda siyasi dialoqun inkişaf etdirilməsi istiqamətində atılmış real addımdır.

*Üçüncüsü,* Milli Məclisin Komitəsinin rəhbər heyətinin, komitə sədrlərinin və onların müavinlərinin tərkibində ciddi yeniliklərin baş verməsi, bu mühüm sferada iqtidardan olan təcrübəli millət vəkilləri ilə bir sırada bitərəflərin və müxalifətin nümayəndələrinin təmsil olunması da siyasi sistemin inkişaf etdirilməsi, dialoq mühitinin genişləndirilməsi baxımından əhəmiyyətli hadisədir. İndiki halda Milli Məclisdə aparılan kadr islahatları ölkə miqyasında bu sahədə həyata keçirilən məqsədyönlü siyasəti tamamlayır.

Yeni tərkibdə formalaşdırılmış Prezident Administrasiyası, daha operativ və çevik fəaliyyət göstərən Nazirlər Kabineti, yeniləşməkdə olan digər icra strukturları ilə Milli Məclisdə baş vermiş dəyişikliklərin bir-birini tamamlaması ölkəmizdə siyasi sistemin bütövlüyünün, ahəngdarlığının təminatına uğurla xidmət edir.

İndi artıq Azərbaycan Respublikasının çoxpartiyalı əsaslarla seçilmiş rəhbər heyətə malik olan parlamenti var. Bu, müstəqillik dövrü Azərbaycan parlamentarizmində ciddi dönüşdür. Bu isə öz növbəsində Azərbaycan Respublikasında ölkə Prezidentinin genişmiqyaslı islahatlarının həyata keçirilməsinə, daha böyük hədəflərə doğru inamlı addımların atılmasına doğru yeniləşmiş vahid komanda ilə getməsinə tam təminat verir.



Bütün bunlar ölkəmizdə daha güclü Azərbaycan naminə növbədənkənar parlament seçkilərinin keçirilməsinin mahiyyətini, fəlsəfəsini aydın surətdə ifadə edir. Heç şübhə yoxdur ki, atılmış addımlar siyasi sistemin dayaqlarının daha da möhkəmləndirilməsinə, siyasi dialoqun genişləndirilməsinə, böyük hədəflərə hesablanmış köklü və məqsədyönlü islahatların həyata keçirilməsinə imkan yaradacaq, təkan verəcəkdir. Bu isə öz növbəsində müstəqil Azərbaycan Respublikasının dövlətçilik maraqlarına və xalqımızın milli mənafelərinə tamamilə cavab verən hadisədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin VI çağırış Milli Məclisin birinci iclasındakı proqram xarakterli nitqi dövlət başçımızın dünyada və ölkəmizdə baş verən hadisələrə dərin analitik təfəkkür əsasında və azərbaycançılıq mövqeyindən yanaşdığını, hər addımda ölkə maraqlarını əsas kimi qəbul etdiyini təsdiqləyir. Məsələnin bu cəhətini önə çəkməsi möhtərəm Prezidentin nitqində əhatə edilən məsələlərin demək olar ki, hamısının şərhində özünü qabarıq şəkildə büruzə verir.

Prezident İlham Əliyev bütün fəaliyyəti boyu olduğu kimi, Milli Məclisdəki tarixi nitqində də miqyasından və məqamından asılı olmayaraq, bütün məsələlərdə birmənalı şəkildə əsl azərbaycançı mövqeyinə malik olmağın nümunəsini göstərmişdir. Diqqət etmək lazımdır ki, 9 fevral Parlament seçkilərinin yekunlarını təhlil edib dəyərləndirərkən ölkə Prezidenti beynəlxalq təşkilatların seçki proseslərinə reaksiyasını ifadə etməklə bərabər, ilk növbədə, məsələyə Azərbaycan xalqının münasibətini, baxışını ön mövqeyə çəkmişdir.

Avropa İttifaqının Azərbaycanda keçirilmiş parlament seçkilərinə obyektiv qiymət verməsinin təqdir edilməsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun "hansısa qüsurları qabardıb, onları böyük hadisə kimi təqdim etməyə çalışmasının" mahiyyətinin açıqlanması beynəlxalq təşkilatların fərqli mövqelərinə dair real münasibətin Azərbaycan ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətlidir.

Lakin həm Prezident İlham Əliyev üçün, həm də xalqımızdan ötrü dövlət başçısının 9 fevral seçkilərinə ölkə vətəndaşlarının rəyinin qiymətləndirilməsi daha böyük əhəmiyyətə malik olan məsələdir. Bu mənada ölkəmizin rəhbərinin Milli Məclisdəki nitqində səsləndirilmiş aşağıdakı sözlər Azərbaycan xalqının mənafelərinin qiymətləndirilməsi baxımından son dərəcə önəmlidir: *"Bütövlükdə seçki prosesi həm uğurla keçmişdir, həm də seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qalmışdır... Bizim üçün əsas məsələ bundan ibarətdir".*

Prezident İlham Əliyevin Milli Məclisdəki nitqində bəyan etdiyi "bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır" tezisi ölkəmizdəki möhkəm ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərən xarici və daxili qüvvələrə əsl azərbaycançı mövqeyindən verilmiş cavabın ifadəsidir. Çox təəssüf ki, xaricdəki ölkəmizin inkişafını istəməyən bəzi qüvvələrlə yanaşı, necə deyərlər, bəzi "sapı özümüzdən olan baltalar" da nadanlıq ucbatından düşmən dəyirmanına su tökməkdən bezmirlər. Müstəqillik dövründə bütün seçkilərdə - prezident, parlament, bələdiyyə seçkilərində həmişə uduzmuş, xalqdan ayrı düşmüş, ölkədə hər hansı bir mövqeyə çatmağa heç bir ümid yeri qalmamış belə başabəla müxalif qruplaşmalar xarici ölkələrdə dayaq axtarmaq, qrant almaq naminə hər cür xəyanətə əl atmaqla milli və dövlətçilik maraqlarımızı aşağı salmağa cəhd göstərirlər. Dövlət rəhbərimizin qəti mövqeyi radikal müxalifətə və onların havadarlarına tutarlı cavab olmaqla bərabər, həm də mövcud siyasi qüvvələrin fəaliyyəti üçün siyasi cəhətdən əhəmiyyətli olan mühüm bir çağırışdır.

Beynəlxalq təşkilatlarda əməkdaşlıq edən qurumların, millət vəkillərinin Azərbaycan həqiqətlərini real şəkildə dünya ictimaiyyətinə çatdırmaları üçün fəallıq, vətəndaşlıq mövqeyi və səviyyə nümayiş etdirmələrinə dair səslənən fikirlərin də qayəsi, "əzəl mübtədası" Azərbaycandır.

Azərbaycan gerçəkliyini beynəlxalq miqyasda hər dəfə obyektiv şəkildə meydana qoyan Prezident İlham Əliyevin bu istiqamətdəki ibrətamiz fəaliyyəti xarici siyasəti təmsil edən dövlət məmurlarımız, diplomatlarımız, millət vəkillərimiz üçün nümunədir. Belə məqamlarda cənab Prezidentin nümayiş etdirdiyi qəti və obyektiv mövqe, hazırcavablıq və geniş dünyagörüşü Azərbaycan xalqına və müstəqil dövlətimizə əlavə xal qazandırır, müsbət imicimizi daha da möhkəmləndirir.

Münxen Beynəlxalq Təhlükəsizlik Konfransında Ermənistanın baş naziri Nikol Paşinyanla dialoqu zamanı Prezident İlham Əliyevin aydın siyasi mövqeyini daha da möhkəmləndirən tarixi məlumatları, tutarlı elmi faktları yerli-yerində beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması dünya ictimaiyyəti qarşısında Azərbaycan həqiqətlərinin real mənzərəsinin canlandırılmasına şərait yaratmışdır. Bu cür obyektiv mövqe nümayiş etdirməyin reallıqlarına dərindən inam bəsləyən Prezident İlham Əliyevin Milli Məclisdəki nitqində deputatlara gələcək fəaliyyət üçün verdiyi tapşırıqlar və tövsiyələr ölkəmizi strateji məqsədlərə çatdırmaq üçün qarşıda duran məsul vəzifələri diqqət mərkəzinə çəkməyi diqtə edir: *"Biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, işğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir Deməliyik ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb... Bu, xüsusi bir istiqamət olmalıdır".*

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət istiqamətində fəaliyyətinin prioritet istiqamətlərini müəyyən edən bu çağırışlar nəinki Milli Məclisin deputatları və ya diplomatlar, eyni zamanda, ölkəmizin bütün ziyalı təbəqələri, xüsusən də elm cəbhəsini təmsil edən alimlər üçün də aktual bir tələbdir. Elmimiz Azərbaycanın tarixi coğrafiyasına, mədəniyyət tarixinə və toponimiyaya dair tədqiqatların miqyasını daha da genişləndirməli, Ermənistan tərəfinin saxta iddialarını və məlumatlarını elmi dəlil və sübutlar əsasında ifşa etməlidir. Xüsusən bu istiqamətdə aparılmış tədqiqatların mühüm elmi nəticələrinin xarici dillərdə, ən azı ingilis, rus, ərəb, fransız, alman dillərində çap edilib beynəlxalq aləmdə yayılmasına daha ciddi fikir verməyə borcluyuq.

Azərbaycan Milli Elmlər Akademiyasında, ali məktəblərimizdə aparılan tədqiqatlar, çap edilən kitablar Milli Məclisin deputatlarına, parlament kitabxanasına çatdırılmalıdır. Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun xalqımıza qarşı Ermənistan tərəfinin apardığı soyqırımı hadisələrinə, repressiya və deportasiya proseslərinə həsr edilmiş çoxsaylı kitabları Milli Məclisin kitabxanasına və millət vəkillərinə təqdim etməsi deputat korpusunun həmin istiqamətdə təbliğat işini daha arqumentli şəkildə aparmasına kömək etmişdir.

Fikrimizcə, bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasında yaradılmış "Azərbaycançılıq elmi-ideoloji Mərkəzi" ölkə elmi mühiti ilə parlamenti əlaqələndirmək üçün əhəmiyyətli bir platforma funksiyasını həyata keçirə bilər. Ümumiyyətlə, dövlət başçımızın ölkə parlamentinin vəzifələri kimi irəli sürdüyü mətləblər və ideyaların həyata keçirilməsi Azərbaycan elminin də borcu və vəzifəsidir.

Parlamentlə Elmlər Akademiyasının qarşılıqlı dialoqu elmin də, siyasətin də xeyrinə ola bilər.

Nəhayət, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin *"Deputatlara tövsiyəm odur ki, onlar seçildikləri dairələrdə fəal olsunlar, seçicilərlə daim təmasda olsunlar"* tələbi də millət vəkillərinin fəaliyyətindəki müəyyən boşluqların aradan qaldırılmasına diqqəti ifadə edən əhəmiyyətli bir işarədir. Bu, xalqla hakimiyyət arasındakı münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edən zəruri bir tələbdir. Etiraf edək ki, bu məqamda möhtərəm Prezident Milli Məclisin deputatlarına həm dövlətin tələbini, həm də xalqın sözünü çatdırmışdır. Xalqla, seçicilərlə ardıcıl təşkil olunan görüşlər yerlərdəki problemlərin öyrənilib aradan qaldırılmasına kömək olduğu kimi, müstəqil dövlətimizin nailiyyətlərinin, ölkəmizdə aparılan islahatların mahiyyətinin xalqa çatdırılması, siyasi maarifçilik işinin yenidən qurulması baxımından da faydalıdır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin VI çağırış Milli Məclisin birinci iclasındakı tarixi nitqi ölkə həyatının yeni mərhələsinin siyasi-ideoloji proqramıdır.

Bu, müasir şəraitdə Azərbaycanda parlamentarizmin yenidən qurulmasının yol xəritəsidir.

Prezident İlham Əliyevin mühüm tarixi əhəmiyyətə malik olan nitqindəki siyasi sistemin təkmilləşdirilməsinə, siyasi dialoqun genişləndirilməsinə, azərbaycançılıq mövqeyinin möhkəmləndirilməsinə dair müddəalar nəticə etibarilə ölkəmizdə dövlət müstəqilliyinin daha da inkişaf etdirilməsinə, cəmiyyətin irəliyə doğru hərəkatına yeni bir güc və qüvvət verir.

Azərbaycan Respublikası Milli Məclisinin Prezident İlham Əliyevin düşündüyü siyasi konfiqurasiya əsasında yenidən qurulub inkişaf etdirilməsi geniş mənada müstəqil dövlətimizin bütün istiqamətlər üzrə müasir inkişafının təmin edilməsi mənasını ifadə edir. Ona görə də dövlət rəhbərinin çağırışlarını ürəkdən qəbul etmək və təqdim olunan islahatların həyata keçirilməsində yaxından və fəal iştirak etmək müstəqil dövlətimizin və xalqımızın qarşısında siyasi-mənəvi borcumuzu məsuliyyətlə yerinə yetirmək deməkdir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın Birinci vitse-prezidenti, akademik, Milli Məclisin deputatı***

Qabaqlayıcı tədbirlər səmərə verir

# Bu çətin günləri həm də dünya azərbaycanlılarının möhtəşəm həmrəyliyi kimi xatırlayacağıq

## Həmvətənlərimiz bütün qitələrdə darda qalan soydaşlarımızın harayına yetişirlər



Əvvəli 1-ci səh.

### Dünyanın dörd bir yanından azərbaycanlıların kömək səsləri ucaldı...

Elə həmin andan dünyanın dörd bir tərəfində yaşayan azərbaycanlılar öz soydaşlarına kömək səslərini ucaltdılar. Həmvətənlərimiz sosial şəbəkələrdə müxtəlif qruplar yaradaraq kampaniyalara başladılar...

Onlar öz evlərinin qapılarını həmvətənlərinə açıq elan edib Azərbaycana qayıda bilməyən soydaşlarımıza dəstək elanları paylaşdılar. Almaniyadan, Yunanıstandan, İsveçrədən, Avstriyadan, Türkiyədən, Qərbi Virciniyadan, İsraildən vətənə qayıda bilməyənləri həftələrlə qonaq etməyə hazır olduqlarını bildirdilər. Ərzaq və digər lazımi məhsullarla təmin etməklə bağlı kömək göstərmək təklifi ilə çıxış etdilər.

Vətəndaşlarımızın çətin günlərində bir-birilərinə dəstək üçün "həmrəy olaq", "pozitiv olaq", "birlik olaq" həştaqlı bu kimi paylaşımları sosial şəbəkələrdə yüksək qiymətləndirilib və hamı onları təqdir edib.

Eyni zamanda, xarici ölkələrdəki diaspor nümayəndələri, koordinasiya şuralarının üzvləri də həmvətənlərimizə kömək üçün bir sıra tədbirlər həyata keçirməyə başlayıblar. Tələbələrin sənəd problemlərinin həlli istiqamətində işlər görülür, maddi çətinliklərinin aradan qaldırılması üçün müəyyən fondlar yaradılır.

Elə darda qalana qapılarını açmaq, qəfil gələn qonağı evinin ən əziz insanı kimi qarşılamaq da məhz Azərbaycan xalqına məxsus yüksək dəyərdir. Bu isə sonradan qazanılmır və xalqımızın milli-mənəvi dəyəri kimi genetik kodlaşmasında özünə yer edib...

### Vətəndaşlarımızın təhlükəsizliyi dövlətin diqqət mərkəzindədir

Xarici ölkələrdə olan həmvətənlərimizin koronavirus infeksiyası səbəbindən qarşılaşdıqları problemlər və sağlıqları ilə bağlı məsələlər hökumətimiz tərəfindən də ciddi nəzarət altında saxlanılır. Onların təhlükəsizliyinin təmin edilməsi istiqamətində bütün mümkün addımlar atılır.

Xaricdəki vətəndaşlarımızın Azərbaycana göndərilməsi istiqamətində görülən tədbirlər birbaşa ölkə Prezidenti İlham Əliyevin nəzarəti altındadır.

DST-nin açıqlamalarına görə, Azərbaycanda COVID-19 virusunun daha geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər yüksək səviyyədədir. Azərbaycan təşkilatın yeni koronavirusun yayılmasının qarşısını almaq üçün ən qabaqcıl laboratoriya dəstlərini alan 17 ölkədən biridir. Bütün bunlar göstərir ki, vətəndaşlarının təhlükəsizliyi dövlətin xüsusi diqqət mərkəzindədir.

### Səfirliklərimizdə "Qaynar xətt"lər yaradılıb

Koronavirusla əlaqədar xarici ölkələrdəki bütün səfirliklərimizdə "qaynar xətt"lər yaradılıb, oradakı soydaşlarımıza təhlükəsizlikləri ilə bağlı lazımi məlumatlar verilib.

Azərbaycanın Yaponiyadakı səfirliyi ilə +8170-3844-2000 nömrəli telefonla və f_talibov@azembassy.jp elektron poçt vasitəsilə əlaqə saxlamaq olar.

Azərbaycanın İndoneziyadakı səfirliyi yeni tip koronavirus epidemiyasının akkreditə olduğu ölkələrdə, İndoneziya, Sinqapur, Filippin və Timor-Lestedə yaşayan, təhsil alan və müvəqqəti olaraq burada səfərdə olan vətəndaşlarımızın mümkün müraciətlərinin operativ şəkildə cavablandırılması məqsədilə "qaynar xətt" (Əlaqə telefonu: +6281295622297; +6281293596611) yaradıb.

Malayziyadakı səfirliyimiz də akkreditə olunduğu ölkələrdə (Malayziya ilə yanaşı, Tailand Krallığı, Myanma İttifaqı Respublikası və Bruney Darüssalamda) yaşayan və müvəqqəti səfərdə olan Azərbaycan Respublikası vətəndaşları üçün "qaynar xətt" yaradıb.

Mob: +60172398963 (qaynar xətt)
İş: +60342526800.

Azərbaycanın Belarusdakı səfirliyinin +375296875440 nömrəli "qaynar xətt"i ilə əlaqə saxlaya bilərsiniz.

Bütün səfirliklərimiz vətəndaşlarımızdan koronavirusdan effektiv şəkildə qorunmaq üçün yaşadıqları ölkələrin müvafiq dövlət orqanlarının yaydığı məlumat və tövsiyələri diqqətlə izləməyi, şəxsi gigiyena, sanitar və digər qaydalara ciddi riayət etməyi, xüsusi zərurət olmadıqda ictimai nəqliyyatdan istifadəni məhdudlaşdırmağı və insanların kütləvi şəkildə toplaşdıqları ərazilərdən çəkinməyi, koronavirusa yoluxma ilə bağlı hər hansı şübhə və ya simptomları yarandığı halda təcili tibbi müayinədən keçməyi xahiş edir.

### 11 "Azərbaycan evi" 24 saat fəaliyyət göstərir

Diasporla İş üzrə Dövlət Komitəsi də xaricdə olan azərbaycanlılara müraciət edib. Müraciətdə bildirilir ki, komitə dünyanın bir çox ölkələrində koronavirusun yayılması ilə əlaqədar xaricdə yaşayan soydaşlarımızla mütəmadi və sistemli şəkildə əlaqə yaradır, bütün vasitələrdən istifadə edərək onları məlumatlandırır, soydaşlarımızın tələb və müraciətləri qeyd-şərtsiz, operativ cavablandırılır.

Hazırda 27 ölkəni əhatə edən 11 Koordinasiya Şurası, dünyanın müxtəlif ölkələrindəki 11 "Azərbaycan evi" 24 saat fəaliyyət göstərir.

Xaricdə yaşayan hər bir azərbaycanlı, eyni zamanda, onların ölkəmizdə olan yaxınları günün istənilən saatında koordinasiya şuraları, Azərbaycan evləri və Qarabağ məktəblərinə müraciət edə, lazımi məlumatları ala və onları narahat edən məsələləri çatdıra bilər.

Xaricdə yaşayan azərbaycanlılarla əlaqəni daha da möhkəmləndirmək üçün bir neçə gündür yaradılan www.diaspora.support və info@diaspora.support ünvanları aktivdir. İndiyə qədər www.diaspora.support və info@diaspora.support elektron ünvanlarına xaricdən onlarla müraciət daxil olub və müraciətlər operativ cavablandırılıb. Soydaşlarımız www.diaspor.gov.az saytına daxil olaraq qeyd olunan məsələlərlə bağlı ətraflı məlumat ala bilərlər.

### Dünya azərbaycanlıları koronavirusa qarşı

Hazırda koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir. Ona görə də hər bir vətəndaş nümunəvi davranışı, dövlət orqanlarının işinə dəstək verməklə özünü, ailəsini, yaxınlarını qorumuş olacaq və ümumilikdə cəmiyyətimizin təhlükəsizliyinə öz vətəndaş töhfəsini verəcək. Təkcə dövlət orqanlarının səmərəli fəaliyyəti deyil, ayrı-ayrılıqda hər bir şəxsin sosial məsuliyyətdən irəli gələn davranışı, Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarlarını qeyd-şərtsiz icra etməsi qarşıda duran vəzifələrin mümkün qədər effektiv icrasını təmin edən əsas faktorlardan biridir.

Azərbaycan güclü dövlətdir və öz vətəndaşlarının bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir. Koronavirusla bağlı Azərbaycandakı vəziyyət bir sıra ölkələrdəki kimi təhlükəli deyil. Həyata keçirilən qabaqlayıcı tədbirlərin isə bu infeksiyanın yayılmasının qarşısını tamamilə alacağı şübhəsizdir.

Bəli, göründüyü kimi, bütün Azərbaycan xalqı dünyanın yeni bəlası COVID-19-la mübarizə üçün həmrəylik, birlik nümayiş etdirir. Bu istiqamətdə hər kəs əlindən gələn köməyi göstərməyə çalışır.

Çox keçməyəcək ki, koronavirus da sovuşacaq və adi xəstəlik kimi tarixə qarışacaq. Amma həmin böhran anlarında göstərilən insanlıq davranışları, bir can yaşatmaq üçün edilən fədakarlıqlar heç zaman unudulmayacaq. Bu günlər də yaddaşımızda dünya azərbaycanlılarının həmrəyliyi kimi qalacaq...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Dünya koronavirus bəlası qarşısında hələ də acizdir

## Azərbaycanda həyata keçirilən sosial izolyasiya tədbirləri virusun kütləvi epidemiyaya çevrilməsinin qarşısını almaqdadır

Əvvəli 1-ci səh.

Ancaq koronavirusun yayılmaması üçün hansı ölkələr ki, səmərəli qabaqlayıcı tədbirlər görür, orada vəziyyət qənaətbəxşdir. Belə ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdəki bugünkü durum göstərir ki, dövlət bütün mümkün qabaqlayıcı və operativ tədbirləri həyata keçirir. Bu baxımdan biz hətta bir çox ölkələri qabaqlayırıq. İnfeksiyanın dünya ölkələrində geniş yayılması ilə əlaqədar Dünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunması Azərbaycanda əlavə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zərurətə çevirib. Bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması və onlara ciddi riayət edilməsi üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqi qərara alınıb.



Lakin nəzərə almaq lazımdır ki, hansısa bir ölkə və şəxs heç nədən sığortalanmayıb. Buna görə də digər ölkələrdə olduğu kimi, Azərbaycanda da daha sərt tədbirlər tətbiq oluna bilər və ictimaiyyət buna hazır olmalıdır.

Hələ ki, ölkəmizdə tətbiq olunan sosial izolyasiya tədbirlərinə əsasən bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirləri təxirə salınıb, əvvəlcədən təyin olunmuş tədbirlərin isə tarixi dəyişdirilib. Kino, muzey və teatrların, əyləncə mərkəzlərinin, idman zallarının fəaliyyəti dayandırılıb. Toy məclislərinin keçirilməsi qadağan edilib. Dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi də qadağan olunub. Restoran və kafelərdə iş rejimi axşam saat 21:00-dək müəyyən edilib və müvafiq dövlət strukturları tərəfindən bu məkanlar üçün açıqlanacaq qaydalara riayət olunması mütləqdir.

### Azərbaycanda vəziyyət bir sıra ölkələrdəki kimi təhlükəli deyil

Göründüyü kimi, dövlət lazımi tədbirləri həyata keçirməkdədir. Bu tədbirlərin başlıca məqsədlərindən biri də hökumətin infeksiyanın miqyasının genişlənəcəyi ehtimalına daha hazırlıqlı olmasını təmin etməkdir. Ona görə də deyə bilərik ki, koronavirusla bağlı Azərbaycandakı vəziyyət bir sıra ölkələrdəki kimi təhlükəli deyil.

Əhalinin məlumatlandırılması ilə bağlı müvafiq işlər görülür. Nazirlər Kabineti yanında Operativ Qərargah gündə bir neçə dəfə mövcud vəziyyətlə və görülən işlərlə bağlı ictimaiyyətə məlumat verir.

Onu da əlavə edək ki, virusa yoluxmamaq üçün qorunmaq əsasən insanların üzərinə düşür. Çünki bu epidemiyanın iki subyekti var - virus və vətəndaş. Mübarizə insanla virus arasında gedir və hansı qalib gəlsə məğlub olanı məhv edir. Bu savaşda görülən bütün inzibati-administrativ tədbirlər insana kömək etmək üçündür. Yoluxmamaq üçün tədbirlər, qorunmaq və ailəni xilas etmək vətəndaşın başlıca vəzifəsidir. Yəni hərə öz üzərinə düşən vəzifəni və məsuliyyəti lazımınca dərk edib, layiqincə yerinə yetirsə nə cəmiyyətimizi, nə vətəndaşımızı, nə dövləti heç bir təhlükə gözləməz.

Azərbaycan müsbət mənada ailə dəyərləri və bağlarının, qohumluq münasibətlərinin yüksək olduğu bir ölkədir. İnsanlarımız öz yaxınlarına qarşı qayğıkeşliyi ilə seçilir, onların problemlərinə görə narahatlıq hissi keçirirlər, bir-birilərinə dəstək göstərməyə çalışırlar. Bu, millətimizin ən gözəl xüsusiyyətlərindən biridir. Bizim mentalitetdə belə bir adət var ki, xaricdə təhsil alan və ya yaşayan övlad öz vətəninə geri qayıdarkən ilk növbədə öz ailəsi və qohum-əqrəbası ilə görüşür, ünsiyyətdə olur. Özü də bilmədən virusu öz ailə üzvləri və qohum-əqrəbasına keçirə bilər, xüsusilə ahıl yaşda olan ata-anaları və baba-nənələrini ölüm təhlükəsinə ata bilər.

Nəzərə almaq lazımdır ki, yaşlı insanlar virusun təsirinə daha tez məruz qalırlar. Buna görə də onlara xüsusi diqqət və qayğı göstərilməlidir.

Virusa yoluxmamaq üçün tələb olunan qaydalara gəlincə isə qeyd edilir ki, vətəndaşlar əsasən evdə olmalı, kütləvi tədbirlərə, qonaqlıqlara, gəzintilərə getməməli, ictimai nəqliyyatdan istifadə, mağazalarda alış-veriş edərkən daha etibarlı qorunmalıdırlar. İctimai nəqliyyatda xəstəliyin yayılma imkanları geniş olduğunu nəzərə alaraq, insanlar qoruyucu vasitələrdən daha ciddi istifadə etməli və öz təhlükəsizlik məsələlərinə daha diqqətlə yanaşmalıdırlar.

Operativ Qərargahın yaydığı məlumatda qeyd edilir ki, hazırda xarici ölkələrdən qayıdan vətəndaşlarımızın karantinə yerləşdirilməsi üçün əlavə yerlər hazırlanır. Dövlətin bu qabaqlayıcı tədbirlərinə, görülən işlərə baxmayaraq bəzi insanlar cəmiyyətdə panika yaratmaq üçün çirkin əməllərə əl atırlar. Sosial şəbəkələrdə yaydıqları yalan məlumatlarla ajiotaj yaratmağa çalışırlar.

Respublika Prokurorluğu xəbərdarlıq edib ki, cəmiyyətdə panika, ajiotajın yaradılmasına xidmət edən şəxslər müəyyənləşdiriləcək və onların barəsində ən sərt tədbirlər görüləcək.

Bir sözlə, dünyanın koronavirus bəlası ilə üz-üzə qaldığı bir vaxtda virusun Azərbaycan daxilində yayılmasının qarşısının alınması və yoluxmuş insanların müalicəsi istiqamətində hökumət tərəfindən bütün səviyyələrdə zəruri tədbirlər görülür. Lakin vətəndaşlarımızın iştirakı və dəstəyi olmadan bu tədbirlərin effektivliyi lazımi nəticə verə bilməz. Buna görə də həm Azərbaycanda, həm xaricdə olan vətəndaşlarımız bu çətin vaxtda fərdi məsuliyyət nümayiş etdirərək tətbiq olunan karantin qaydalarına ciddi riayət etməli, öz ailə üzvləri, yaxınları və digər insanları riskə atmaqdan çəkinməlidirlər.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# *Operativ Qərargah:* "Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna giriş məhdudlaşdırılır"

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə bütün səviyyələrdə hərəkətin məhdudlaşdırılması və sosial təcridin gücləndirilməsi tədbirləri davam etdirilir.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə martın 19-da saat 00:00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılır.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin (avtobus, mikroavtobus, taksi və s.) ölkənin başqa şəhər və rayonlarından Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna sərnişin daşımaları qadağan olunur. Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı şəhərinə sərbəst giriş-çıxışına icazə verilir.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan avtomobillərin və sərnişindaşıma nəqliyyat vasitələrinin qeydiyyatda olduqları yaşayış məntəqələrindən kənara səfər etməkdən və sərnişin daşımaqdan çəkinməyə çağırırıq.

Sumqayıt və Abşeron istisna olmaqla, ölkənin bütün şəhər və rayonlarından qatar vasitəsilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna sərnişin daşınması dayandırılır.

Ölkə ərazisindəki hava limanlarından Bakıya sərnişin daşınmasına fasilə verilir.

Ticarət əlaqələrinin saxlanması, ərzaq və başqa gündəlik tələbat mallarına ehtiyacı təmin etmək məqsədilə bütün nəqliyyat vasitələri ilə yükdaşımaları sərbəstdir.

Xüsusi buraxılış rejimi qaydalarını pozan şəxslər haqqında hüquqi məsuliyyət tədbirləri tətbiq olunacaq.

# Azərbaycanda koronavirus infeksiyasına daha 6 yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni koronavirus infeksiyasına daha 6 yoluxma faktı qeydə alınıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Bildirilib ki, xüsusi rejimli xəstəxanalara yerləşdirilən və müşahidə altında olan həmin şəxslər özlərini normal hiss edirlər, səhhətləri stabil qiymətləndirilir.

Hazırda Azərbaycanda 27 nəfər aktiv koronavirus xəstəsi xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altındadır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşlarımızı Ümumdünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında operativ qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırırıq.

# Azərbaycanın İsveçdəki səfirliyi COVID-19 virusunun yayılması ilə bağlı həmyerlilərimizə müraciət edib

Azərbaycanın İsveç Krallığındakı səfirliyi COVlD-19 koronavirusunun dünyada geniş yayılaraq həmyerlilərimizin də həyat və sağlamlığına təhlükə yaratdığı üçün təmsil olunduğu ölkələrdə yaşayan azərbaycanlılara müraciət edib.

AZƏRTAC-a verilən məlumata əsasən, yaranmış vəziyyətlə əlaqədar səfirlik, İsveç ilə yanaşı həm də Norveç Krallığı və Finlandiya Respublikasında yaşayan, təhsil alan və müvəqqəti olaraq səfərdə olan vətəndaşlarımızın mümkün müraciətlərinin operativ şəkildə cavablandırılması məqsədilə qaynar xətt yaradılıb. Beləliklə +46 76 201 69 57 nömrəli telefona zəng edərək, həmyerlilərimiz yaranmış vəziyyətlə bağlı səfirliyə həftənin 7 günü 24 saat ərzində müraciət edə bilərlər.



Yaranmış epidemioloji vəziyyətlə əlaqədar səfirliyin konsulluq şöbəsi məhdud rejimdə fəaliyyət göstərdiyi üçün, təcili konsulluq məsələləri ilə bağlı həmvətənlərimiz stockholm@mission.mfa.gov.az elektron poçt ünvanına müraciət edə bilərlər.

Qeyd edək ki, Azərbaycanın İsveç Krallığındakı səfirliyi həmyerlilərimizə COVID-19 virusundan effektiv şəkildə qorunmaq üçün İsveç, Norveç və Finlandiya dövlət səhiyyə qurumlarının yaydığı məlumat və tövsiyələri diqqətlə izləməyi, sanitar və gigiyena qaydalarına riayət etməyi tövsiyə edib.

# Rusiya Dəmir Yolları Azərbaycana reyslərini ləğv edib

Rusiya Dəmir Yolları (RDY) Azərbaycana gedən qatar reyslərini ləğv edib. AZƏRTAC RDY-ə istinadla xəbər verir ki, koronavirusla bağlı yaranmış vəziyyətə görə mart ayının 16-dan etibarən Rusiyanın Azərbaycan və Özbəkistan ilə beynəlxalq dəmir yolu əlaqəsi dayandırılıb.

Məlumatda bildirilir ki, "Özbəkistan Dəmir Yolları" Səhmdar Cəmiyyəti və "Azərbaycan Dəmir Yolları" QSC həmin qərara müvafiq olaraq və yeni koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə martın 16-dan etibarən xüsusi göstəriş verilənə qədər beynəlxalq sərnişin qatarlarının fəaliyyətini dayandırır.

Ləğv olunmuş reyslərə alınmış biletlərin pulunu əlavə ödəniş və rüsum ödəmədən geri almaq mümkün olacaq. Sərnişinlər pulun qaytarılması ilə bağlı biletin alındığı dövlətin ərazisində istənilən dəmir yolu kassasına müraciət edə bilər. Elektron gediş sənədlərini isə onların tərtib edildiyi veb-resurslar vasitəsilə təhvil verməK olar.

Xatırladaq ki, Rusiya Dəmir Yolları, həmçinin Çin, KXDR, İtaliya, Latviya, Monqolustan, Çexiya, Polşa, Fransa, Almaniya ilə beynəlxalq sərnişin qatarlarının fəaliyyətini dayandırıb.

## Qabaqlayıcı tədbirlər səmərə verir

Koronavirusun dünyada geniş yayılması, Dünya Səhiyyə Təşkilatı (DST) tərəfindən infeksiyanın qlobal pandemiya elan olunması bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da əlavə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zərurətə çevirib. Dövlət orqanlarının fəaliyyətini əlaqələndirən Operativ Qərargahın yaradılması, bəzi ölkələrlə sərhədlərin bağlanması və gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə imkan verib. Bir ay müddətində kütləvi tədbirlərin, toyların təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması, onlara ciddi riayət edilməsi üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqi qərara alınıb. Azərbaycan hökuməti DST-nin tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirib.





# Azərbaycan koronavirusla mübarizədə səmərəli tədbirlər həyata keçirir







### TƏBİB: "Bu gün vəziyyət tam nəzarət altındadır"

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı ölkəmizdə koronavirus infeksiyasının yayılması intensivliyinin ciddi nəzarət altında olduğunu qeyd edib. O, Milli Məclisin Səhiyyə və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında koronavirusla bağlı mübarizə sahəsində görülən işlər, mövcud vəziyyət barədə məlumat verərkən bildirib ki, indiyə qədər xəstəlik aşkar olunmadığı üçün 711 nəfər karantindən evə buraxılıb. Hazırda karantində 560 nəfər var. Karantində saxlanılanların bir qismi Bakı, digərləri rayonlardakı xəstəxanalardadır. Ağır halda olanlar Bakıda müvafiq xəstəxanalarda, daha yüngül vəziyyətdə olanlar rayonlardakı xəstəxanalardadır. Ümumilikdə isə 25 nəfərdə koronavirus aşkarlanıb. Onlardan 7 nəfərdə inkubasiya dövrü bitib və sağalaraq evə buraxılıblar. Bu günə qədər isə 4200-ə qədər müayinə aparılıb.

TƏBİB-in İdarə Heyətinin sədri Azərbaycanın koronavirusla mübarizə aparmaq üçün kifayət qədər dərman və tibbi ləvazimat ehtiyatlarına malik olduğunu vurğulayıb: "Azərbaycan diaqnostik kitləri əldə edən ilk dövlətlərdən biridir. Bundan başqa, biz müasir tələblərə uyğun tam avtomatlaşdırılmış laboratoriyaların qurulması ilə məşğul olduq. Bu laboratoriyalarda gün ərzində 5 mindən çox insanı sürətlə və yüksək dəqiqliklə test etmək imkanına malikik. TƏBİB-in tabeliyində olan 3 mindən çox tibb müəssisəsi tam səfərbər olunmuş vəziyyətdədir. Regionlarımızın əksəriyyətində müasir tibb mərkəzləri və infrastruktur var. Xəstələr daxil olan gün müayinə materialı götürülür, xəstəlik aşkar olunan şəxs xüsusi tibb mərkəzində izolyasiya edilir və müalicəyə alınır, digərlərinin isə müşahidəsi davam etdirilir. Əgər 7-ci gün testin nəticəsi neqativ olarsa, o zaman evə buraxılırlar. Karantində saxlanılma müddəti 14-21 gün davam etdirilə bilər. TƏBİB-in mütəxəssisləri hava limanında fəaliyyət göstərirlər. Gördüyümüz bütün işləri alqoritm şəklində hazırlamışıq. Hava limanında 3 tibb məntəqəsi yaradılıb. Bəzi ölkələr var ki, epidemiyanın episentri hesab olunur. Həmin ölkədən gələnlər bilavasitə karantin müəssislərinə göndərilir. Digər ölkələrdən gələnlər isə TƏBİB-in tibb məntəqələrinə yönləndirilir. Orada onların müvafiq müayinəsi həyata keçirilir. Əgər simptomları varsa, karantinə göndərilir. Simptomları yoxdursa, onlara bukletlər təqdim olunur və evə göndərilirlər".

R,Bayramlı deyib ki, sahə həkimlərinə və pediatrlara onlayn təlimlər keçirilir, alqoritm verilir: "Biz iki istiqamətdə iş aparırıq. Bütün poliklinikalarda "qaynar xətlər" ayrılıb. Dövlət Sərhəd Xidməti sərhədi keçmiş şəxslərin siyahısını elektron formada bizə göndərir. Lazımi tədbirlər görülür. Biz bu insanların vəziyyəti barədə daim məlumat alırıq. Bütün bu tədbirlər xəstəliyin yayılmasının qarşısını almağa yönəlib. Statistik göstəricilərdə artım yoxdur. Bu, onu göstərir ki, bu gün ölkəmizdə vəziyyət tam nəzarət altındadır".

Azərbaycanda koronavirusla mübarizə ilə əlaqədar fövqəladə vəziyyət elan edilməsinə ehtiyac olub-olmamasına gəlincə, TƏBİB-in İdarə Heyətinin sədri bildirib ki, bu, vəziyyətdən asılıdır: "Əgər belə bir təhlükə görsək, dərhal müvafiq qurumlara, hökumətə müraciət edərik. Ancaq bu gün infeksiyanın yayılma intensivliyi və prosesi nəzarətdə saxlamağımız buna qəti surətdə əsas vermir. Avropanın bir sıra ölkələri fövqəladə vəziyyət elan edib, amma Azərbaycanda durum elə deyil. Bizdə koronavirusla bağlı intensivlik o həddə deyil, ona görə də buna ehtiyac yoxdur".

Nazirlər Kabineti yanında Operativ Qərargahın dünənki məlumatına görə isə, Azərbaycanda 6 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Xüsusi rejimli xəstəxanalara yerləşdirilən və müşahidə altında olan həmin şəxslər özlərini normal hiss edirlər, səhhətləri stabil qiymətləndirilir.

Hazırda xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altında olan bütün aktiv koronavirus xəstələrinin müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Qərargah koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşlarımızı Dünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırır.

### İşdə bu şəxslərə güzəşt olunacaq

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və dövlət qurumlarının rəhbərlərinə məktub göndərib. Məktubda dövlət qurumlarının rəhbərlərinə koronavirus infeksiyasına qarşı mübarizənin təşkil edilməsini təmin etmək və icrasına ciddi nəzarət edilməsi ilə bağlı tapşırıqlar yer alıb:

1. *İclasların, müşavirələrin və toplantıların yalnız telefon rabitəsi (selektor), mobil və internet vasitəsilə keçirilməsinə üstünlük verilsin;*
2. *Mümkün olduğu halda, əməkdaşların məsafədən işləmələri məsələsinə baxılsın;*
3. *60 yaşdan yuxarı şəxslərin və öhdəsində azyaşlı uşağı olan qadınların iş davamiyyətinə güzəştli şərtlər tətbiq edilsin;*
4. *İşçilərin və onların ailə üzvlərindən birinin qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi halları olduğu təqdirdə həmin işçilərin işə çıxması qadağan edilsin;*
5. *Xüsusi zərurət olduğu hallar istisna olmaqla, bütün ezamiyyət dayandırılsın. Ezamiyyətə xüsusi zərurət olduğu hallarda, razılıq alınması məqsədilə dövlət orqanlarının və qurumlarının rəhbərləri tərəfindən operativ qərargaha əsaslandırılmış rəsmi müraciət edilsin;*
6. *Əməkdaşların xarici ölkələrə rəsmi səfərləri dayandırılsın;*
7. *Vətəndaş qəbulu ilə əlaqədar aşağıdakı qaydalara riayət edilsin:*

*7.1. qəbul otağında vətəndaşların qrup və fərdi surətdə qəbulları təxirə salınsın;*

*7.2. yerlərdə səyyar qəbulların keçirilməsi dayandırılsın;*

*7.3. vətəndaşların müraciətlərinin fasiləsiz qəbulu yalnız elektron və telefon rabitəsi vasitəsilə həyata keçirilsin, bu məqsədlə hər orqan və qurumda elektron və telefon əlaqə ünvanları və nömrələri müəyyən edilsin, habelə qaynar xətlərin fasiləsiz fəaliyyəti təmin edilsin;*

*7.4. vətəndaş müraciətlərinin yalnız elektron və telefon vasitəsilə qəbul edilməsi məqsədilə hər orqan və qurumda məsul əməkdaşlar müəyyən edilsin;*

*7.5. mümkün olduğu halda, vətəndaşlara səyyar xidmətlərin göstərilməsi təşkil edilsin;*

*7.6. göstərilən tədbirlər barədə vətəndaşların məlumatlandırılması təmin edilsin;*

*7.7. mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət qurumları vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşsınlar.*

8. *Əməkdaşlara sosial məsuliyyəti davranmaları, xüsusi zərurət olmadan digər şəxslərlə təmasda olmamaları və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq hər cür ehtiyat tədbiri görmələri tapşırılsın.*
9. *Yuxarıda qeyd olunan müddəalar hüquq mühafizə və hərbi xidmət orqanlarına, dövlət əhəmiyyətli və həyat təminatlı obyektlərə, fasiləsiz iş rejimində fəaliyyət göstərən müəssisələrə, səhiyyə və digər tibb müəssisələrinin işçilərinə şamil edilmir.*

### Dünya koronavirusla mübarizədə

Təəssüf ki, dünyada koronavirusa yoluxanların sayı durmadan artmaqdadır. Odur ki, ölkələr epidemiya ilə mübarizə aparmağa davam edir. Dünya Səhiyyə Təşkilatı yeni növ koronavirusla bağlı (COVID-19) martın 17-nə olan vəziyyəti açıqlayıb. Son statistikaya görə, 2019-cu ilin dekabrında Çində baş qaldırmış yeni koronavirus artıq 162 ölkəyə yayılıb. Dünya üzrə koronavirusa 182742 nəfər yoluxub (290 yeni yoluxma), 7174 nəfər ölüb, 79883 nəfər isə sağalıb (1 300 yeni sağalanlar).

Çində yeni tip koronavirusa yoluxanların sayı 81117, bu virus səbəbindən ölənlərin sayı isə 3231 nəfərə çatıb. Ötən sutka ərzində 21 yoluxma və 13 ölüm faktı qeydə alınıb. Ölüm hallarının 12-si virusun epicentri olan Xubey vilayətində baş verib. Çin həkimləri indiyədək 68679 nəfəri sağalda biliblər. Hazırda Çin üzrə 2830 xəstənin vəziyyəti kritikdir.

Cənubi Koreyada koronavirusa yoluxanların sayı 84 nəfər artıb. Bununla da ölkədə koronavirusa yoluxanların sayı 8320 nəfərə çatıb, virusdan 82 nəfər ölüb.

Cənubi Koreya həkimlərinin məlumatına görə, xəstəxanalarda 264 pasiyent sağalaraq evə buraxılıb.

Kanadada son sutkada 100-dən çox virusa yoluxma faktı qeydə alınıb. Hökumətin məlumatına əsasən, nəticədə koronavirus daşıyıcılarının sayı 424 nəfərə çatıb. Ən çox yoluxma halı Ontario inzibati mərkəzində qeydə alınıb - 117 nəfər.

İsveçrə hakimiyyəti aprelin 19-dək ölkədə fövqəladə vəziyyət rejiminin tətbiq olunduğunu elan edib. Ölkədə bütün ictimai və özəl tədbirlərə qadağa qoyulub. Bir sıra mağaza və apteklər istisna olmaqla bütün iaşə müəssisələri bağlanıb. Bundan əlavə, qonşu ölkələrlə - Almaniya, Fransa və Avstriya ilə sərhədlərdə nəzarətin gücləndiriləcəyi bildirilib. Əvvəllər bu cür nəzarət yalnız İtaliya ilə sərhəddə tətbiq edilirdi.

Son məlumatlara görə, artıq İsveçrədə 2200 nəfərdə koronavirus infeksiyası qeydə alınıb. Şənbə günündən bəri 800-dən çox virusa yoluxma təsdiqlənib. Bu günə qədər ölənlərin sayı 18-ə çatıb.

Koronavirusla əlaqədar 640 Özbəkistan vətəndaşı xəstəxana şəraitində, 5 min 600 nəfər isə ev karantinindədir. Özbəkistanın Səhiyyə naziri Əlişir Şadmanov "Uzbekistan 24" kanalına müsahibəsində bildirib ki, ölkədə 8 nəfərdə koronavirus aşkarlanıb, onların vəziyyəti sabitdir, xəstəliyin aqressivləşməsi qeydə alınmayıb.

Ə.Şadmanov vurğulayıb ki, Özbəkistan hakimiyyəti koronavirusun ölkə ərazisində yayılmasının qarşısının alınması üçün bütün lazımi tədbirləri görür. Ölkədə karantin elan olunması ilə əlaqədar Özbəkistan xarici ölkələrlə aviasiya və avtomobil yolunu tam bağlayıb, məktəb, universitet və uşaq bağçalarının fəaliyyəti dayandırılıb, xarici turistlərin ölkəyə gəlməsinə qadağa qoyulub.

Ermənistanda koronavirusa yoluxanların sayı 52 nəfərə çatıb.

ABŞ-da da vəziyyət ürəkaçan deyil. Belə ki, yeni tip koronavirus (COVID-19) 85 nəfərin ölümünə səbəb olub. Yoluxma sayı 4600 nəfəri ötüb. Bu da öz növbəsində son üç gündə iki dəfə artım deməkdir. Ağ ev 15 gün ərzində əhaliyə evdən çıxmamaqla bağlı çağırış edib. Təkcə 13 milyondan çox əhalisi olan Los-Anceles və San-Diyeqo şəhərlərində bütün restoranlar fəaliyyətlərini dayandırıb.

Birləşmiş Ştatların qonşusu Meksikada da vəziyyət gərginləşməyə başlayıb. Belə ki, bir gündə 29 yeni yoluxma faktı qeydə alınıb. Ölkənin Səhiyyə naziri Rikardo Kortes bildirib ki, hazırda ölkədə 82 nəfər koronavirus daşıyıcısıdır.

Türkiyədə yeni koronavirus infeksiyasına yoluxanların sayı 47-yə çatıb. Türkiyənin Səhiyyə naziri Fahrettin Koca özünün "Twitter" səhifəsində yazıb ki, daha 29 nəfərin koronavirusa yoluxduğu təsdiqlənib: "Onların bəzisi ABŞ, Avropa ölkələri və Yaxın Şərq bölgəsində infeksiyaya yoluxublar. Üç nəfər Səudiyyə Ərəbistanında olan vətəndaşdır. Xaricdən yoluxma riski yüksək olaraq qalır".

Pakistanda koronavirusa yoluxan şəxs ölüb. Hadisə Pəncab əyalətinin mərkəzi şəhəri Lahorda qeydə alınıb. Bu, ölkədə koronavirusdan qeydə alınan ilk ölümdür. Pakistanda virus indiyədək 184 nəfərdə qeydə alınıb. Onlardan ikisi sağalıb.

Fransada koronavirusa yoluxanların ümumi sayı 6,6 mini keçib, onlardan 148 nəfəri ölüb. Son bir gündə yoluxanların sayı 1210, ölənlərin sayı isə 21 nəfər olub.

İtaliyada isə koronavirus qurbanlarının sayı 2158-ə çatıb. Son sutka ərzində İtaliyada 349 nəfər koronavirusdan dünyasını dəyişib.

Rusiyada yoluxanların sayı bir gündə 30 nəfər artaraq 93 nəfərə çatıb. 93 nəfərdən 4-ü sağalaraq xəstəxanadan evə buraxılıb. Daha 79 adam xəstəxanadadır, onlardan 57-nin xəstəliyi yüngül formada keçir.

Gürcüstanda virusa yoluxanların sayı 35 nəfərə çatıb. Koronavirus şübhəsi ilə karantinə alınan şəxslərin sayı 1008-ə çatıb. Daha əvvəlki məlumata əsasən, gün ərzində karantinə alınanların sayı 637 nəfər idi. Gürcüstan hökuməti əcnəbi vətəndaşların ölkə ərazisinə girişinə qadağa qoyub. Qadağa 18 mart saat 00:00-dan tətbiq ediləcək.

Dünən yerli vaxtla saat 12:00-dan etibarən Avropa İttifaqı da sərhədlərini bağlayıb. Bunu Fransa Prezidenti Emmanuel Makron COVID-19 koronavirusla bağlı xalqa müraciətində deyib. O, Avropa İttifaqına və Şengen zonasına giriş-çıxışın 30 gün müddətində dayandırıldığını bəyan edib. Belə ki, Şengen dövlətləri sərhədlərini bütün xarici ölkə vətəndaşları üçün bağlayacaq və gəliş-gedişlər dayandırılacaq.

E.Makron bildirib ki, Avropa İttifaqı dövlətlərindən olmayan xarici ölkə vətəndaşlarının isə öz ölkələrinə qayıtması üçün lazımi şərait yaradılacaq.

### "Test edin, test edin, test edin!"

Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus Cenevrədə keçirilən brifinqdə koronavirus pandemiyasını dövrümüzün ən böyük səhiyyə böhranı adlandırıb. DST rəhbərinə görə, koronavirusa qarşı mübarizədə müayinə və testlərin sayı artırılmalıdır: "Bizim çağırışımız çox sadədir: Test edin, test edin, test edin! Gözləri bağlı halda alova qarşı mübarizə aparmaq mümkün deyil".

DST rəhbəri, həmçinin dünyanın bir sıra ölkələrində koronavirusa qarşı mübarizədə sərt tədbirlərin görülməsini alqışlayıb. O, test və müayinələrlə yanaşı, yoluxanların və onlarla təmasda olan şəxslərin ciddi şəkildə cəmiyyətdən təcrid olunmasının vacibliyini vurğulayıb. Çünki infeksiyanın əlamətləri yox olduqdan sonra xəstələnmiş şəxs hələ iki həftə boyunca ətrafındakı insanları yoluxdura bilər. Ona görə də ev şəraitində karantində olan şəxslər və onların yaxınları ehtiyat tədbirləri görməli, qaydalara ciddi riayət etməlidirlər.

Buna görə də DST ötən dövr ərzində dünyanın 120 ölkəsinə 1,5 milyon test göndərib. O, pandemiyanın iqtisadiyyatı zəif inkişaf etmiş ölkələrə daha ağır zərbə vura biləcəyindən narahatlığını da ifadə edib.

### İlk peyvənd sınaqdan keçirildi

Dünən ABŞ-da yeni növ koronavirusa qarşı peyvəndin ilk sınağı keçirilib. ABŞ-da hazırlanan peyvəndin sınağı Vaşinqton ştatında 4 nəfər üzərində test edilib. Test olunanların adları açıqlanmayıb. Onlardan biri 43 yaşlı, 2 uşaq anasıdır. Qarşıdakı günlərdə sağlam 45 nəfərin könüllü şəkildə sınaqlara cəlb olunacağı vurğulanıb. Nəticə müsbət olarsa, peyvənd 12-18 ay müddətində insanların istifadəsinə verilə bilər.

ABŞ Prezidenti Donald Tramp vaksinin sınaqdan keçirilməsini belə dəyərləndirib: "Bu, tarixdə ən sürətlə hazırlanan vaksinlərdən biridir. Yaxşı iş görə bilsək, mütəxəssislər iyul və ya avqusta qədər koronavirusun yayılmasının qarşısını ala biləcəyimizi deyirlər".

ABŞ Prezidenti Donald Tramp Ağ evdə koronavirusla mübarizəyə həsr olunmuş mətbuat konfransında ölkə vətəndaşlarını bar, kafe və restoranlara getməməyə, habelə zərurət yaranmadığı halda səyahət etməməyə çağırıb.

### Gömrük Komitəsi bir neçə ölkədən gediş-gəlişə qadağa qoyub

Koronavirus infeksiyasının (COVID-19) sürətlə yayılması heç bir dövlət tərəfindən gizlədilmir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti dövlətləri daha ciddi tədbirlər görməyə məcbur edir. Əksər ölkələr fövqəladə rejimə keçir, hava uçuşlarını dayandırır, sərhədləri bağlayır. Azərbaycanda da öz növbəsində bütün mümkün qabaqlayıcı və operativ tədbirlər həyata keçirilir.

Koronavirus (COVID-19) infeksiyasının yayılmasına qarşı mübarizə tədbirləri çərçivəsində Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi qaydalara əsasən, hazırda Gürcüstan və İran İslam Respublikasından şəxslərin və yüngül minik nəqliyyat vasitələrinin gediş-gəlişinə qadağa qoyulub. Martın 18-dən bu məhdudiyyətlər Rusiya Federasiyası ilə sərhəddə yerləşən gömrük-sərhəd keçid məntəqələrində də tətbiq ediləcək.

Dövlət Gömrük Komitəsinin (DGK) məlumatında qeyd olunub ki, bu məhdudiyyətlər yalnız sərnişinlərə və yüngül minik avtomobillərinə aiddir. Yük nəqliyyat vasitələrinin gediş-gəlişində hər hansı məhdudiyyət yoxdur.

Virusun geniş yayıldığı İran İslam Respublikasından Azərbaycana gələn nəqliyyat vasitələri bir neçə mərhələdə dezinfeksiya edildikdən sonra sərhədə yaxın ərazidəki xüsusi terminala yönləndirilir. Terminalda yüklər Azərbaycan Respublikası qeydiyyat nişanlı nəqliyyat vasitələrinə boşaldılaraq təyinat nöqtəsinə yola salınır. Tranzit yükləri daşıyan nəqliyyat vasitələrinin ölkə ərazisində hərəkəti Dövlət Yol Polisinin müşayiəti altında həyata keçirilir.

Digər ölkələrdən daxil olan yük nəqliyyat vasitələri isə dezinfeksiya işləri aparıldıqdan sonra təyinat nöqtələrinə yola salınır.

"Hazırda Dövlət Gömrük Komitəsi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir, ticarətin asan, maneəsiz və sürətli şəkildə həyata keçirilməsi istiqamətində bütün zəruri addımlar atılır. Xarici ticarət iştirakçılarının diqqətinə onu da çatdırırıq ki, Novruz bayramı ilə əlaqədar qeyri-iş günlərində, 20 mart tarixi də daxil olmaqla bütün gömrük idarələrində gömrük rəsmiləşdirilməsi fasiləsiz olaraq həyata keçiriləcək", - deyə məlumatda bildirilib.

### Panikaya yol verməyin, ehtiyatı isə əldən buraxmayın

Vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin etibarlı müdafiəsi və hazırkı qlobal problemin təsirindən qorunması Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. Azərbaycan öz vətəndaşlarının bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir. DST-nin ekspertlərinin də qeyd etdiyi kimi, Azərbaycan hazırkı qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Lakin nəzərə almaq lazımdır ki, təkcə dövlət orqanlarının səmərəli fəaliyyəti ilə iş bitmir. Ayrı-ayrılıqda hər bir şəxsin üzərinə sosial məsuliyyət düşür. Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarlarına qeyd-şərtsiz əməl etmək, tətbiq olunan qaydalara riayət etmək təkcə dövlət orqanlarının deyil, ümumilikdə bütün cəmiyyətin, fərdi qaydada hər bir vətəndaşın üzərinə böyük məsuliyyət qoyur. Hər kəs anlamalıdır ki, tətbiq olunan qaydalar ilk növbədə onun, ailəsinin və yaxınlarının təhlükəsizliyini, sağlamlığını təmin etmək məqsədi daşıyan müvəqqəti və məcburi addımlardır. Odur ki, hamı qaydalara dözümlü və anlayışla yanaşmalı, onları maksimum icra etməyə çalışmalıdır. Məsələyə ciddi yanaşmaq, panikaya yol verməmək lazımdır. Lakin ehtiyatı da əldən buraxmaq olmaz. Dünyanı vahimə içərisində saxlayan koronavirusun müalicəsi, təbii ki, onun profilaktikasından başlayır. Hər bir vətəndaşın şəxsi və kollektiv gigiyena tələblərinə riayət etməsi olduqca vacibdir. Mütəxəssislər də bildirir ki, xəstəlikdən qorunmaq üçün gigiyena qaydalarına və qidalanmaya fikir vermək vacibdir. Öskürmə, asqırma zamanı ağız və burun birdəfəlik istifadəyə yararlı salfetlə, dəsmalla tutulmalıdır. Həmin vasitələr yoxdursa, dirsəyin içinə asqırmaq və öskürmək olar. Əl ilə salamlaşmamaq və qucaqlaşmamaq, insanların çox olduğu yerlərdən uzaq durmaq, çirkli əllərlə ağız, burun və gözlərə toxunmamaq məqsədəuyğundur. Əllərin təmizliyinə fikir vermək, onları 20-30 saniyə ərzində sabunla axar suda yumaq məsləhət görülür. Su olmadıqda spirt tərkibli antiseptiklər istifadə edilməlidir. Bununla yanaşı, immuniteti gücləndirən qidaların, meyvə-tərəvəzlərin istifadəsi tövsiyə olunur.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Regionlar iqtisadi inkişaf və sosial infrastruktur sarıdan paytaxtdan geridə qalmır





Prezident İlham Əliyevin martın 3-4-də regionlara, o sıradan Tovuz və Ağstafa rayonlarına səfərləri həm bölgələrdə yaşayan əhali, həm də bütünlükdə ölkə üçün ciddi əhəmiyyət kəsb edən tədbirdir. Bu səfərdə diqqətçəkən ən vacib məqamlardan biri erməni işğalçılarının təcavüzünə, ölkənin uzun və ağır münaqişəyə sürüklənməsinə baxmayaraq, hər yerdə dayanıqlı və sürətli inkişafın özünü büruzə verməsidir. Ardıcıl islahatlardan qaynaqlanan bu tərəqqi isə ölkənin ən ucqar bölgələrində, təmas xətti boyu yerləşən cəbhə rayonlarında daha çox hiss olunur.

Bu səfərlərdən çıxan nəticə odur ki, iqtisadi və sosial inkişafda paytaxtla əyalət arasında zərrə qədər də fərq yoxdur. Bu gün müasir dünya düzənində Azərbaycandan güclü elə ölkələr var ki, kiçik şəhərləri xaraba qalır, minlərlə kəndləri xəritədən silinir, gənclər köçür gedir, qoca sakinlər isə kəndləri ilə birlikdə tədricən yaddaşlara köçürlər. Amma Azərbaycanın hər guşəsi daha cəlbedici və müasir, paytaxtla əyalət arasında fərq isə tədricən yox olur.

Bu baxımdan dövlət başçısının Tovuz və Ağstafa rayonlarına səfəri zamanı açılışında iştirak etdiyi, fəaliyyəti ilə tanış olduğu müxtəlif obyektlərin sayı və əhatə dairəsi də çox genişdir. Prezident İlham Əliyev Tovuz rayonunda yenidənqurmadan sonrakı Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun, "ASAN Həyat" kompleksinin, Dövlət Rəmzləri, Tarix-Diyarşünaslıq və Aşıq Sənəti muzeylərinin açılış mərasimlərində iştirak etdi. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tovuz filialının fəaliyyəti ilə tanış oldu, elə həmin gün Ağstafada yerləşən "N" saylı hərbi hissənin, Ağstafa Aqrar Sənaye Kompleksinin, yenidən qurulan elektrik yarımstansiyasının, Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun, Daxili Qoşunların inşa olunan "N" saylı hərbi hissəsinin açılış mərasimlərinə qatıldı və "Azərxalça" ASC-nin Ağstafa filialının fəaliyyəti ilə maraqlandı. Bu səfərdə növbəti dəfə diqqətçəkən vacib məqamlardan biri iqtidar-xalq bağlılığı oldu. Çünki bütün görülən işlər, reallaşdırılan layihələr ölkə vətəndaşlarının rifahına xidmət edir.

Dövlət başçısının Tovuzda açılışında iştirak etdiyi "ASAN Həyat" kompleksi sayca 18-cidir. Bu kompleks Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarında qeydiyyatda olan 737 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərəcək. "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320-dən çox xidmət həyata keçiriləcək.

Prezident İlham Əliyev kompleksin açılışındakı çıxışında "ASAN Həyat" mərkəzinin dövlət siyasətinin intellektual məhsulu olduğunu qeyd etdi: "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir, yeni nəslin nümayəndələridir. Burada onlar yeni baxışlarla, yeni təfəkkürlə, yeni mədəniyyətlə xidmət göstərirlər. Ona görə "ASAN xidmət" çox uğurlu layihədir və bu uğurun təməlində həm düşünülmüş siyasət, həm də bu işi təşkil edənlərin səmərəli fəaliyyəti dayanır. Biz qısa müddət ərzində ictimai xidmətlər sahəsində inqilab edə bildik".





Səfər çərçivəsində yeni muzeylərin açılması dövlətin milli-mədəni dəyərlərin qorunması istiqamətində atdığı möhtəşəm addımların növbəti təsdiqidir. Tovuz rayonunda Dövlət Rəmzləri, Tarix-Diyarşünaslıq və Aşıq Sənəti muzeylərinin açılışı isə bu mənada nadir hadisədir. Bu üç muzey həm yerli sakinlərin qürur mənbəyi, həm də əcnəbiləri gözəlliyi və məzmunu ilə heyran qoya bilən nadir mədəniyyət ocaqlarıdır.

Dövlət gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün də geniş imkanlar yaradır. Prezident gənclərlə görüşündəki çıxışında dövlətin gənclər siyasətinin mahiyyətini açıqladı və ölkənin keçmişinə kiçik bir səyahət etdi, "Nəyi əldə



etmişiksə, öz gücümüz, cəsarətimiz, istedadımız hesabına qazanmışıq" dedi. 1990-cı illərin əvvəllərində 8 milyonluq Azərbaycan əhalisinin 1 milyonu qaçqın, köçkün idi. İqtisadiyyat dağılmışdı, sənaye iflic vəziyyətdə idi, köçkünlər çadır şəhərciklərində, vaqonlarda yaşayırdılar və insanlar kasıbçılıqdan əziyyət çəkirdilər: "Bütün bunları biz yaşamışıq. Amma görün, bu gün düşünülmüş siyasət, sabitlik nəticəsində Azərbaycan dünya miqyasında inkişaf baxımından aparıcı yerlərdədir. Sabitlik, əmin-amanlıq, cəmiyyətdəki müsbət ovqat - bütün bunlar Azərbaycan reallıqlarıdır. Bölgələrin inkişafı. Tovuz şəhəri Bakıdan uzaqda yerləşir. Amma Tovuz şəhərinin timsalında biz bu inkişafı görürük. Baxın, indi qazlaşdırmanın səviyyəsi 90 faizdir. Təmirli yolların səviyyəsi 90 faizdir. İçməli su həmişə böyük problem olub. Artıq bir neçə ildir ki, Tovuz şəhərinin içməli su problemi öz həllini tapıb. Müasir xəstəxana, müasir dializ və diaqnostika mərkəzləri, idman kompleksi, parklar, sənaye müəssisələri".

Prezident İlham Əliyevin bu səfərdə toxunduğu ən vacib məqamlardan biri də gələcək nəsillərin bilikli, savadlı, vətənpərvər, Vətənə bağlı və milli dəyərlərə rəğbət ruhunda yetişdirilməsinin vacibliyinə verdiyi önəm oldu. Azərbaycan Prezidenti bir daha vurğuladı ki, bizi xalq kimi, millət kimi əsrlər boyu məhv olmaqdan, assimilyasiyadan qoruyan milli-mənəvi dəyərlərimiz, ana dilimiz, ədəbiyyatımız, incəsənətimiz və milli şüurumuz olub: "Bunu biz heç vaxt itirə bilmərik, heç vaxt! Nə qədər ki, mən prezidentəm, var gücümlə çalışacağam ki, bu dəyərlər tam bərqərar olsun. ...bizim gənclər milli ruhda tərbiyə almalıdırlar. Bilməlidirlər ki, Azərbaycanın bundan sonra da müstəqil ölkə kimi yaşaması üçün onların hər biri vətənpərvər olmalıdır. Hər biri öz bayrağını həmişə uca tutmalıdır, öz milli atributlarına hörmətlə yanaşmalıdır və heç kimin təsiri altına düşməməlidir".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Yanvar-fevral aylarında 99,6 min ton kimya sənayesi məhsulları göndərilib



Cari ilin ilk iki ayında Azərbaycandan 99,6 min ton kimya sənayesi məhsulları ixrac edilib.

Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a verilən məlumata görə, ixrac edilən kimya sənayesi məhsullarının dəyəri isə 13,8 milyon ABŞ dolları olub.

Xatırladaq ki, 2019-cu ilin eyni aylarında ölkədən ixrac olunan 55,4 min ton kimya məhsulunun dəyəri 12,5 milyon dollar təşkil etmişdi.

## Goranboyda yaradılan yeni istilikxanada və damazlıq qoyunçuluq təsərrüfatında 150 nəfər işlə təmin olunacaq

Goranboy rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edir. Son illər rayonda bir neçə istehsal və emal müəssisəsi istifadəyə verilib. Keçən il Qızılhacılı qəsəbəsində 15 hektar sahədə 4-cü nəsil yeni istilikxana kompleksi - "Kaskad Aqro" fəaliyyətə başlayıb.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, Muzdurlar kəndində fəaliyyət göstərən 920 başlıq iribuynuzlu südlük və damazlıq heyvandarlıq kompleksinin nəzdində süd məhsullarının emalı müəssisəsinin və damazlıq qoyunçuluq təsərrüfatının da yaradılması nəzərdə tutulub.

Qeyd edilib ki, bütün bunlar reallaşdıqdan sonra, ümumilikdə, 150 yeni iş yeri açılacaq.

## Şəmkirdə ötən il üzüm bağlarından 26 min tondan çox məhsul yığılıb



Respublikamızın əsas üzümçülük və şərabçılıq rayonlarından olan Şəmkirdə ötən il 556 hektar üzüm bağlarından 26 min 243 ton məhsul yığılıb. AZƏRTAC xəbər verir ki, rayonda fəaliyyət göstərən "Şərq Ulduzu" MMC-də isə 731 ton üzüm yığılıb.

Müəssisə tərəfindən il ərzində 51,7 min dekalitr şərab istehsal olunub və satışa çıxarılıb.

## Ermənistan silahlı qüvvələri snayper tüfənglərindən də istifadə etməklə atəşkəsi 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# İki ayın ilkin iqtisadi göstəriciləri nədən xəbər verir

### 7,7 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin 2 ayı ərzində ölkə üzrə 7,7 milyard manatlıq və ya 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 21,7 faiz artmışdır.

Sənaye məhsullarının 68,4 faizi mədənçıxarma, 26 faizi emal, 5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda neft hasilatı 3,7 faiz azalmış, əmtəəlik qaz hasilatı 19,1 faiz artmışdır.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 7, kompüter, elektron və optik məhsulların istehsalı 5,7, digər nəqliyyat vasitələrinin istehsalı 2,5, içkilərin istehsalı 2,1 dəfə, ağacın emalı və ağacdan məmulatların istehsalı 89,8, geyim istehsalı 79,6, hazır metal məmulatlarının istehsalı 56,5, mebel istehsalı 47,3, poliqrafiya məhsullarının istehsalı 40,7, metallurgiya sənayesi məhsullarının istehsalı 39,6, kağız və karton istehsalı 27,5, elektrik avadanlıqlarının istehsalı 27,1, toxuculuq sənayesi məhsullarının istehsalı 25, kimya sənayesi məhsullarının istehsalı 19,5, tütün məmulatlarının istehsalı 16,3, neft məhsullarının istehsalı 11,3, əczaçılıq məhsullarının istehsalı 4,2, rezin və plastik kütlə məmulatlarının istehsalı 3,6, qida məhsullarının istehsalı 1,2 faiz artmış, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 7,7, maşın və avadanlıqların istehsalı 19,1, tikinti materiallarının istehsalı 21,9, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 40,3 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, habelə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında da artım qeydə alınmışdır - müvafiq olaraq 18,6 və 4,3 faiz.

### Əsas kapitala 1,9 milyard manatdan çox vəsait yönəldilmişdir

Cari ilin yanvar-fevral aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 1 milyard 965,2 milyon manat vəsait yönəldilmişdir.

Sərf edilmiş vəsaitin 58,7 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil etmişdir. Ümumi sərmayənin 68,3 faizi məhsul istehsalı və 20,6 faizi xidmət sahələrinə, 11,1 faizi isə yaşayış evlərinin tikintisinə sərf edilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 58,3 faizi daxili mənbələr olmuşdur.

Bu dövrdə yatırılan investisiyanın ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 65,3, büdcə vəsaitləri 17,1, əhalinin şəxsi vəsaitləri 7, bank kreditləri 5,1, digər vəsaitlər 3,1, büdcədənkənar dövlət fondlarının vəsaitləri isə 2,4 faiz təşkil etmişdir.

### Xarici ticarətdə 930,5 milyon dollarlıq müsbət saldo qeydə alınmışdır

Azərbaycan cari ilin ilk ayında 133 ölkədəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 71 ölkəyə məhsul ixrac, 124 ölkədən idxal edilmişdir.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac edilən xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla yanvar ayında ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 2 milyard 372,3 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 1 milyard 651,4 milyon dollarını (69,6 faizini) ölkədən ixrac olunmuş məhsulların, 720,9 milyon dollarını (30,4 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 930,5 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2019-cu ilin yanvar ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 5,5, real ifadədə 18,1, o cümlədən idxal 45 faiz azalmışdır. İxracda isə 0,5 faiz artım müşahidə olunmuşdur.

Cari ilin yanvar ayında qeyri-neft-qaz məhsullarının ixracı 2019-cu ilin yanvar ayına nisbətən faktiki qiymətlərlə 2,5 faiz artmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 53,6 faizi İtaliyaya, 8,5 faizi İsrailə, 5,8 faizi Türkiyəyə, 4,4 faizi Tunisə, 4 faizi Ukraynaya, 3,1 faizi Çexiyaya, 2,8 faizi Portuqaliyaya, 2,4 faizi Almaniyaya, 2,3 faizi Rusiyaya, hər biri 2,2 faiz olmaqla Avstriya və İspaniyaya, hər biri 1,9 faiz olmaqla Fransa və Xorvatiyaya, 1,8 faizi Yunanıstana, 3,1 faizi isə digər ölkələrə göndərilmiş məhsulların payına düşmüşdür.

Qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (34,3 faiz), Türkiyəyə (23,5 faiz), İsveçrəyə (12,1 faiz), Gürcüstana (6 faiz), Çinə (4,2 faiz), İtaliyaya (2,9 faiz), Ukraynaya (2,2 faiz), Braziliyaya (2,2 faiz), Almaniyaya (1,6 faiz), Qazaxıstana (1,3 faiz), Yunanıstana (1,2 faiz), İrana (1 faiz) göndərilmiş malların xüsusi çəkisi üstün olmuşdur.

İdxal olunmuş məhsulların isə ümumi dəyərinin 16,2 faizi Rusiya, 15,8 faizi Çin, 14,1 faizi Türkiyə, 6,1 faizi Almaniya, 4,1 faizi ABŞ, hər biri 3,9 faiz olmaqla Türkmənistan və İtaliya, 3,5 faizi Ukrayna, 3,3 faizi İran, 2,6 faizi Birləşmiş Krallıq, 1,9 faizi Fransa, hər biri 1,8 faiz olmaqla Koreya və Yaponiya, 1,3 faizi Meksika, 19,7 faizi digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Yanvar ayında 2019-cu ilin eyni ayı ilə müqayisədə mühüm məhsul növlərindən bitki yağlarının ixracı 9,3, meyvə və tərəvəz konservləri - 1,8, meyvə və tərəvəz şirələri - 1,7, marqarin, qida üçün yararlı digər qarışıqlar - 3,9, polietilen - 1,6, pambıq ipliyi - 3,7 dəfə, kartof - 17,3, emal olunmamış alüminium - 5,1, qara metallardan borular - 25,3, bentonit gili - 18,4 faiz artmış, təzə meyvə ixracı 22,7, təzə tərəvəz - 17, şəkər - 44,5, tütün - 67,1, çay - 56,6, təbii üzüm şərabları və üzüm suslosu - 87,3, pambıq lifi - 11,7 faiz azalmışdır.

İdxala gəldikdə, bitki yağları üzrə 6,8, kərə yağı, digər süd yağları və pastaları - 40,3, təzə tərəvəz - 8,5, polad prokatı - 47,6, yük avtomobilləri - 35,8 faiz, minik avtomobilləri - 2,5, hesablama maşınları, blok və qurğuları - 1,6, çay - 1,9, avtobuslar - 2 dəfə artmış, buğda idxalı 54,4, təzə meyvə - 6,4, kartof - 13,5, quş əti və onun əlavə məhsulları - 10,5, mal əti - 12,2, xam şəkər və şəkər - 81,1 faiz azalmışdır.

### İqtisadi sektorda orta aylıq əməkhaqqı 27,8 faiz artaraq 712 manatı üstələmişdir

Fevralın 1-nə olan vəziyyətə görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 117,2 min nəfər və ya 7,7 faiz artaraq 1 milyon 641 min nəfər olmuşdur. Onlardan 911,9 min nəfəri iqtisadiyyatın dövlət, 729,1 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 20,5 faizi təhsil, 18 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,2 faizi sənaye, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi tikinti, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Yanvar ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 27,8 faiz artaraq 712,1 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

### Pərakəndə ticarət dövriyyəsinin həcmi 3,1 faiz artmışdır

İlin əvvəlindən ötən 2 ay ərzində ölkə üzrə pərakəndə ticarət şəbəkəsindən əhaliyə 5 milyard 858,7 milyon, o cümlədən 2 milyard 994,7 milyon manatlıq ərzaq, içki və tütün məmulatları, 2 milyard 864 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ümumi ticarət dövriyyəsi üzrə 3,1, o cümlədən ərzaq, içki və tütün məmulatları üzrə 2,6, qeyri-ərzaq məhsulları üzrə 3,6 faiz artım müşahidə olunmuşdur.

Bu dövrdə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədikləri vəsaitin 45,1 faizi ərzaq məhsullarının, 6 faizi içkilər və tütün məmulatlarının, 18 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6 faizi elektrik malları və mebellərin, 5,3 faizi avtomobil yanacağının, 1,6 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,3 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf edilmişdir.

Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 294,3 manat və ya 2019-cu ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 14,9 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 150,4 manatlıq ərzaq, içki və tütün məmulatları, 143,9 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Azərbaycan mədəniyyətinin təbliğ edilməsi məqsədilə reklam-çap, təbliğat məhsullarının hazırlanması və müxtəlif marketinq işlərinin təşkilinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**Azərbaycan mədəniyyətinin təbliğ edilməsi məqsədilə reklam-çap, təbliğat məhsullarının hazırlanması və müxtəlif marketinq işlərinin təşkilinin satın alınması ilə əlaqədar**

Tender iştirakçılarına təklif edilir ki, http://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Seymur Həsənov
Email: seymur.hasanovs@gmail.com
Əlaqə telefonu: 012 498 19 94

**İştirak haqqı: 250 (iki yüz əlli) manat**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün tələb olunan sənədləri **15 aprel 2020-ci il saat 11:00-a** qədər, tender təklifini isə **23 aprel 2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Zərflər **24 aprel 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsi ilə aparılır.

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 5 LOT üzrə keçirilir:**
**LOT 1 Dəftərxana ləvazimatlarının satın alınması.**
**LOT 2 Elektrik və məişət təsərrüfat mallarının satın alınması.**
**LOT 3 IPTV/ OTT platformasının qurulması və istismar xidmətlərinin satın alınması.**
**LOT 4 "Bakı Telefon Rabitəsi" MMC-nin xidməti ərazisində EATS-lərdə enerji dayanıqlığını təmin etmək üçün dizel generatorların satın alınması.**
**LOT 5 Stansiya akkumulyatorları və UPS-lərin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1. 200 (iki yüz) manat (ƏDV daxil)**
**LOT 2. 160 (bir yüz altmış) manat (ƏDV daxil)**
**LOT 3. 600 (altı yüz) manat (ƏDV daxil)**
**LOT 4. 600 (altı yüz) manat (ƏDV daxil)**
**LOT 5. 400 (dörd yüz) manat (ƏDV daxil)**
İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **16 aprel 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 *faiz* Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **23 aprel 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **24 aprel 2020-ci il (5 LOT üzrə saat 11:00-17:00-dək)** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

# Beynəlxalq aləm



## Səudiyyə Ərəbistanında korrupsiya ittihamı ilə 298 nəfər tutuldu

Səudiyyə Ərəbistanında pul vəsaitlərinin yuyulması və səlahiyyətlərdən sui-istifadə ittihamları ilə 298 nəfər saxlanılmışdır. Bu barədə krallığın Antikorrupsiya Komitəsi məlumat vermişdir.

Tutulanlar arasında 219 məmur, o cümlədən Müdafiə Nazirliyinin 8 əməkdaşı, Daxili İşlər Nazirliyinin 29 əməkdaşı, Səhiyyə Nazirliyinin 21 əməkdaşı və 2 hakim də var. Səhiyyə Nazirliyinin əməkdaşlarına tenderlər keçirilərkən fırıldaqçılıq və vəsaitləri mənimsəmək ittihamları irəli sürülmüş, hakimlər korrupsiyada günahlandırılmışlar. Saxlanılanlar arasında iki general və bir neçə polkovnik də var.

Antikorrupsiya Komitəsinin məlumatına görə, tutulanlar dövlətə 101 milyon dollar məbləğində zərər vurmuşlar. Onların şəxsiyyətləri açıqlanmır.

## Koronavirus 151 ölkədə aşkar olunub




Son bir gün ərzində dünyada yeni tipli koronavirusa 13903 yoluxma halı təsdiqlənmişdir. 24 saat ərzində 862 nəfər vəfat etmişdir. Bu barədə Dünya Səhiyyə Təşkilatı məlumat vermişdir.

Bütün yoluxma hallarının 29-u Çinin materik hissəsində qeydə alınmışdır.

Hazırda dünyada COVID-19-a yoluxanların sayı 167511 nəfərdir. Ölüm hallarının ümumi sayı 6606-ya çatmışdır. Bunlardan 3388-i Çin hüdudlarından kənardadır. Virus 151 ölkədə aşkarlanmışdır.

## Ukrayna şəhərlərində metro bağlandı



Ukraynada koronavirusla əlaqədar bütün metropolitenlər bağlanmışdır. Bu barədə ukraynalı deputat Aleksey Qonçarenko Radada texnogen təhlükəsizlik və fövqəladə hallar üzrə komissiyanın iclasında qəbul olunmuş qərara istinadən məlumat vermişdir. Komissiya Kiyev, Xarkov və Dneprdə metropoliteninin bağlanması barədə qərar qəbul etmişdir.

Ukrayna Prezidenti Vladimir Zelenski vurğulamışdır ki, ictimai nəqliyyatın, o cümlədən metropolitenin işində məhdudiyyətlər adamların kütləvi toplanmasının qarşısını almaq və insanların həyatını qorumaq zərurətindən irəli gəlir.

## Əfqanıstanda təhlükəsizlik qüvvələrinin 11 əməkdaşı həlak oldu



Əfqanıstanda taliblərlə təhlükəsizlik qüvvələri arasında toqquşmalar nəticəsində hüquq mühafizə orqanlarının 11 əməkdaşı həlak olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Şəhrək rayonu administrasiyasının başçısı Məhəmməd Kəbirinin dediyinə görə, "Taliban"ın üzvləri Qor əyalətinin Şəhrək rayonunun Kamanç qəsəbəsində polis məntəqəsinə hücum etdikdən sonra toqquşma baş vermişdir. Nəticədə təhlükəsizlik qüvvələrinin 11 əməkdaşı həlak olmuş, 6 nəfər yaralanmışdır.

Kəbiri qeyd etmişdir ki, toqquşmaların gedişində 15 talib öldürülmüş, 2 zirehli maşın yararsız vəziyyətə salınmışdır.

## Nigeriyada neft kəmərində partlayış baş verdi



Nigeriyada neft kəmərində baş vermiş partlayış nəticəsində 15 nəfər, o cümlədən 3 uşaq həlak olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir. Partlayış Laqos əyalətində baş vermişdir. Ölənlərin sayı arta bilər. Partlayış dalğası bir məktəbi dağıtmış, 50 ev yanmışdır. Şagirdlər dərhal təxliyə edilmişlər. Məktəblilər və digər vətəndaşlar yaralanmışlar.

# Ermənistanda siyasi çaxnaşma böyüyür

## Paşinyan iqtidarı vətəndaşların təhlükəsizliyini qoruya bilmir

Ermənistanda cərəyan edən son hadisələr bu ölkənin sosial-iqtisadi sahəsində olduğu kimi, siyasi həyatında da problemlərin artdığından xəbər verir. Belə görünür ki, Paşinyan hakimiyyəti ilə sabiq iqtidar təmsilçiləri arasında kəskinləşən qarşıdurma ölkədə yeni xaosun formalaşmasına zəmin yaradır, ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu göstərir.

Belə durumda ən çox diqqəti cəlb edən məqamlardan biri də Ermənistanda Paşinyan və Konstitusiya Məhkəməsi ətrafındakı gərginliyin ən yüksək həddə çatmasıdır. Buna paralel olaraq aprelin 5-də keçiriləcək referendumda əksər siyasi qüvvələr iştirak etmək istəmədiklərini bildirdikləri halda, Paşinyan geri çəkilmək niyyətində deyil.

"Qolos Armenii" saytı yazır ki, Paşinyan bir müddət əvvəl əyalətlərin birində olarkən çıxış edəcəyi auditoriyanı doldurmaq üçün müəllimlərdən şagirdləri məktəbə çağırmasını tələb etmişdi. Yeri gəlmişkən, bu gün ölkədə koronavirusla bağlı təhlükənin böyüdüyün bildirən sayt, qəribə də olsa, Ermənistandakı çaxnaşmanın səbəbini yayılan virusda deyil, hökumətdə axtarır: "Maraqlıdır ki, ötən şənbə Paşinyanla görüşən səhiyyə naziri Arsen Torosyan görüşdən sonra jurnalistlərlə görüşməmək üçün hökumət binasını gizli yolla tərk etmişdi. Paşinyan və komandası naşı fəaliyyətləri ilə bir neçə gün ərzində dövlətin və vətəndaşların təhlükəsizliyini təmin edə bilmədiklərini ortaya qoydular. Bu gün aparıcı ölkələr dünyanı bürüməkdə olan iqtisadi böhrana qarşı mübarizə tədbirləri apardıqları halda, Paşinyan məzuniyyətə çıxıb referendumla bağlı təşviqat aparır. Dünyanın bütün rəhbərləri öz vətəndaşlarını böyük izdihamlardan çəkinməyə çağırdığı halda, "Mənim addımım" fraksiyasının nazir və deputatları insanları aprelin 5-də seçki məntəqələrinə gəlməyə çağırırlar".

Bildirilir ki, bu gün Paşinyan üçün xalqın sağlamlığın o qədər də önəm kəsb etmir. Hazırda baş naziri aprelin 5-də "Bəli" deyəcək 650 minlik səs düşündürür. Paşinyan üçün ölkədəki koronavirusla bağlı baş verənlər elə də önəmli deyil: "650 minlik səs qazana biləcəyinə şübhə edən Paşinyan qaçılmaz fiaskodan xilas olmaq üçün bir epidemiya təhlükəsindən istifadə etməyə təşəbbüs göstərmək istəyir. Çünki baş nazir də təqribən 6 milyon dollara başa gələcək referendum əvəzinə ölkədə neçə evsizin ev şəraitinin yaxşılaşdırıla biləcəyini anlayır".

Hazırda Ermənistan üçün hələ də ən aktual problemlərdən biri ölkə əhalisinin xarici ölkələrə köçünün davam etməsidir. Rusiyanın rəsmi mənbələrinin verdiyi məlumata görə, bu ölkənin miqrasiya reyestrində qeydiyyata alınan ermənilərin sayı 300 mindən çoxdur. Bununla yanaşı, Rusiyanın ayrı-ayrı əyalətlərində qanuni işləyən ermənilər də var ki, onların da sayı artıq 100 mini ötməkdədir. Maraqlıdır ki, bunları etiraf edən erməni rəsmiləri soydaşlarının xaricə, ən çox halda isə Rusiyaya üz tutmalarını onların yaxşı bir həyat axtarışı ilə əlaqələndirsələr də, onların Ermənistanda qalan ailələrinin sonda dağılması ilə yekunlaşdığını gizlətmirlər.

Bunu yaxşı anlayan erməni rəsmiləri çıxış yolu kimi müxtəlif variantlar axtarışındadırlar. Məsələn, bu günlərdə yaradılan "Ermənistan Caritas" xeyriyyə təşkilatı daha çox Avrasiya İqtisadi Birliyi ölkələrinə üz tutan ermənilərin işləməsi və onların qalmaları ilə bağlı problemlərin həlli istiqamətində iş aparır. Qeyd edək ki. bu gün Ermənistandan Rusiyaya köç edən erməni ailələrinə məhdudiyyət qoymaq üçün Ermənistan rəhbərliyi müxtəlif variantlardan yararlanmağa çalışır. Məsələn, hazırda erməni hüquq müdafiəçiləri Ermənistanı tərk edən ailələrə məktəbəqədər uşaqları özləri ilə aparmamağa çağırır. Yeri gəlmişkən, bildirək ki, Rusiyada miqrant ailəsində uşağın doğulması faktı onun vətəndaşlığına təsir göstərmir. Yəni bu ölkədə xaricdən gələn ailədə doğulan körpənin valideynindən övladının Federal Miqrasiya Xidmətində qeydiyyata aldırması tələb olunur.

"Joxovurd" qəzeti yazır ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra da qalan mövcud problemlər əhalinin yaşayış səviyyəsini minimuma endirib. Aparılan qeyri-konstruktiv siyasət nəticəsində bütün beynəlxalq enerji, neft-qaz layihələrindən kənarda qalan Ermənistan indi yalnız ianələrə ümid bəsləyir. Əyalət sakinləri deyirlər ki, dünyadakı maliyyə böhranı problemləri səbəbindən xaricdə yaşayan yaxınlarından da yardımlar kəsilib. Bu faktı statistika xidməti də təsdiqləyir. Məlumata əsasən, Ermənistana pul transferlərinin həcmi üç ildir azalan temp üzrə davam edir. Qeyd olunur ki, hər il ölkəni tərk edənlər sırasında yer alan 10 minlərlə vətəndaş sonradan geri qayıtmır. Onların əksəriyyəti 18-65 yaş arasında olan insanlardır. Bu proses davam etsə, bir neçə ildən sonra Ermənistan əhalisinin sayı bir milyondan da az olacaq.

Bunlar göstərir ki, qarşıdakı dövr heç də Paşinyan iqtidarı üçün asan olmayacaq və bu hal ölkədə gərginliyi daha da artıracaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bölgələrdə yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, martın 18-də Bakıda və Abşeron yarımadasında gün ərzində havanın arabir yağıntılı olacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 4-6°, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 772 millimetr civə sütunundan 765 millimetr civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 7-12° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, martın 18-də Abşeron yarımadasında arabir güclənən xəzri küləyinin əsəcəyi gözlənilir ki, bu da meteohəssas insanlar üçün nisbətən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, dağlıq ərazilərdə 3-5° şaxta, gündüz 7-12° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında arabir yağış, bəzi yerlərdə qar yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 6-10° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında arabir yağış, bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-8° isti, dağlarda gecə 2-5°, gündüz 0-2° şaxta olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 7-12° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-7°, gündüz 7-11° isti, dağlarda gecə 0-3° şaxta, gündüz 2-5° isti olacağı ehtimalı var.

## Qubanın Qırız və Xınalıq kəndlərində temperatur mənfi 9 dərəcəyədək aşağı düşüb



Martın 16-sı axşam saatlarından başlayaraq Quba, Qusar və Xızı rayonlarının yüksək dağlıq ərazilərinə qar yağıb.

Qubada yerləşən Şimal-Şərq Regional Hidrometeorologiya Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, ən çox qar Xınalıq kəndində yağıb. Burada qarın hündürlüyü 6 santimetrə çatır. Qar yağması ilə əlaqədar Qubanın Qırız və Xınalıq kəndlərində temperatur mənfi 9 dərəcəyədək aşağı düşüb.

Xızının Altıağac qəsəbəsində 1, Qubanın Xaltan kəndində 1, Qırızda 3, Qusarın Ləzə kəndində isə 2 santimetr qar yağıb.

## Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətində "Qaynar xətt" xidməti fəaliyyətə başlayıb

Dövlət sərhədindən buraxılış məntəqələrinin fəaliyyəti ilə bağlı vətəndaşların müraciət və sorğularının operativ şəkildə cavablandırılması üçün Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Nəzarətində 16-58 qısa nömrəli "Qaynar xətt" xidməti fəaliyyətə başlayıb.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, sabit telefon şəbəkəsinin abunəçiləri üçün yığım qaydası, Bakı şəhəri üzrə - 16-58, bölgələr üzrə - 012-16-58, mobil telefon şəbəkələrinin abunəçiləri üçün - 16-58 təyin edilib.

***"Azərbaycan"***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6955
Sifariş 928
Qiyməti 40 qəpik